www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 yanvar 2016-cı il Cümə № 21 (6342) Qiymıəti 60 qəpik

**Xəbər**

**Bakıda bir nəfər donvurmadan ölüb**

yazısı səh.15-də

**Gündəm**

**Zavodları əlindən alınmış Zülfüqarlıların nümayəndələri mətbuat konfransı keçirdi**



Vaxtilə 1500-ə qədər adamın çalışdığı müəssisənin işçiləri hüquqlarının bərpasını tələb edirlər

yazısı səh.3-də

**Artur Rəsi-Zadənin əvəzolunmazlığının sirri**

yazısı səh.4-də

**Hadı Rəcəbli pensiyaçı məmurları yola salmağa çağırdı**

yazısı səh.6-da

**Apteklərdə niyə qrip vaksinləri satılmır?**

yazısı səh.15-də

**Müxalifət partiyasının sədri fermer təsərrüfatını arıçılıqla əvəz edib**

yazısı səh.13-də

**Baş redaktor aksiya xəbərlərinə görə Baş Prokurorluğa çağırıldı**

yazısı səh.5-də

**Tikinti bumu yenidən başlaya bilər**

yazısı səh.12-də

**Qəbul imtahanı ləğv edilə bilər-ekspertlər danışır**

yazısı səh.7-də

**Bankların bağlanması maliyyə sistemində təlaş yaradıb**

yazısı səh.13-də

**Üç nüfuzlu təşkilat niyə ölkəmizi hədəfə alıb?**

yazısı səh.9-da

**Pirşağıda ər və arvad dəm qazından öldü**

yazısı səh.15-də

**İcra başçısı postu dəbdən düşür-səbəbi...**

yazısı səh.10-da

## Bir-biri ilə savaşan iki qurum birləşdirilir

# MİKAYIL CABBAROV QƏLƏBƏ ƏRƏFƏSİNDƏ-MƏLEYKƏ ABBASZADƏ GEDİR...

Məlumatlara görə, yaxın günlərdə Təhsil Nazirliyi ilə TQDK eyni qurumda birləşdiriləcək, adıçəkilən qurumların bazasında Elm və Təhsil Nazirliyi yaradılacaq; təhsil naziri bu layihənin həyata keçməsinə təkid edir; 2013-cü il prezident seçkilərindən sonra Məleykə Abbaszadənin komissiya sədri kimi təsdiqi niyə yubanmışdı?




yazısı səh.7-də

## Ölkə böyük borclanmaya gedir - 4 milyard dollar...

Bakıda Beynəlxalq Valyuta Fondu və Dünya Bankının nümayəndələri ilə danışıqlar başlayıb; ekspertlər bildirirlər ki, borcun artması gələcəyimiz üçün təhlükədir

yazısı səh.10-da



**Zİyad Səmədzadə adının Eldar Mahmudovla hallanmasından danışdı**

yazısı səh.5-də



*Sabir Rüstəmxanlı:*

**"Parlamentdə o qədər millİ xəyanətkarlar var kİ..."**

yazısı səh.6-da



**Prezİdent səfİrlərİ gerİ çağırır - Məmmədyarovun fiaskosu**

yazısı səh.4-də

# Müsavatçı gənc niyə həbs edilib?

**Nemət Kərimli:** "Dərsə gedən müəllimin üstündən narkotik çıxar?"



**Müsavat Gənclər Təşkilatının və partiyanın Qubadlı təşkilatının üzvü Elvin Paşayev yanvarın 23-də həbs edilib. O, narkotik maddələrin satışında ittiham ediləræk, barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Sumqayıt Dövlət Universitetinin məzunu olan, "Hədəf" hazırlıq kursunda müəllim işləyən müsavatçı gəncin hazırda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanıldığı bildirilir. Onun barəsində məlumat almaq mümkün olmur. Paşayevin həbsinə səbəb kimi onun sosial şəbəkələrdə yazdığı statuslar göstərilir.

**Vəkil Nemət Kərimli** "Yeni Müsavat"a açıqlamasında hüquqlarını müdafiə etdiyi şəxslə hələ də görüşə bilmədiyini deyib: "Elvin yanvarın 23-də saxlanılıb. Ona qarşı ittihamda göstərilir ki, guya dərsdən çıxarkən Sumqayıt ərazisində həbs edilib. Üstündən 65 qram tiryək tapılıb. Bu ittihama kimsə inana bilməz. Çünki dərsə gedərkən saxlanılıb. Dərsə gedən müəllimin üstündən narkotik çıxar? O, həbs edildiyi gün valideynləri 102 xidmətinə və digər aidiyyəti orqanlara məlumat veriblər. Qanunda göstərilir ki, həbs edilən şəxsə yaxınları ilə əlaqə saxlamaq üçün şərait yaradılmalıdır. Onun barəsində yanvarın 25-də Nərimanov Rayon Məhkəməsində həbs-qətimkan tədbiri seçilib. Qərarda onun nə üçün həbs edilməsi belə əsaslandırılmayıb. Yanvarın 26-da Elvinin valideynləri Hacı adlı müstəntiqlə görüşüblər. O deyib ki, oğlunuz narkotik maddənin aludəçisi olub. Qərardan apelyasiya şikayəti hazırlamışıq. Məhkəməyə təqdim edəcəyik. Elvin həbs edildikdən sonra ona işgəncələrin verilib-verilməməsi ilə bağlı heç bir məlumatımız yoxdur. Həftənin birinci günü görüşməyə cəhd edəcəm. Ondan sonra geniş məlumat verəcəm. Elvin özünü təqsirli bilmir".

**Müsavat Gənclər Təşkilatının İdarə Heyətinin üzvü Əbülfəz Sadıqbəyli E.Paşayevin həbsindən əvvəl izlənildiyini bildirdi:** "Son günlər Sumqayıt Dövlət Universitetindəki korrupsiya halları ilə bağlı yazılar yazırdı. Ehtimal olunur ki, ona görə həbs edilib".

❑ **Cavanşir ABBASLI**

# Dava salan idmançıya 30 sutka həbs cəzası verildi

**Bakı Apelyasiya Məhkəməsində general Məhərrəm Əliyevin qohumu İsa Əzizovla bağlı məhkəmə prosesinin təfərrüatları məlum olub. Virtualaz.org xəbər verir ki, İsa Əzizovun Bakıda olduğu təsdiqlənib və o, məhkəmə qarşısına çıxarılıb. Hakimin "törətdiyin əmələ görə özünüzü təqsirli bilirsinizmi" sualına İsa Əzizov "bəli" cavab verib. Saytın prosesi izləyən əməkdaşı xəbər verir ki, İsa Əzizov yanacaqdoldurma məntəqəsinin işçisini döyərkən içkili olduğunu deyib və bildirib: "Gərək o da məni başa düşəydi".**



İ.Əzizov deyib ki, İqtisad Universitetində oxuduğu üçün barəsində çıxarılan 30 sutkalıq inzibati həbs qərarının dəyişdirilməsini xahiş edir.

Hakim İ.Əzizovun barəsində anket məlumatlarını dəqiqləşdirərkən məlum olub ki, o, 1992-ci ildə Şərur rayonunda anadan olub. Bakıxanov qəsəbəsində yaşayır. Bir neçə il öncə quldurluq cinayəti törətdiyi üçün həbs olunub. Barəsində 3 il 6 ay həbs cəzası çıxarılıb. Lakin cəmi 3 ay həbsdə qaldıqdan sonra azadlığa buraxılıb.

Hakim İ.Əzizovun apelyasiya şikayəti ilə bağlı qərar çıxarmaq üçün müşavirəyə yollananda saytın əməkdaşı generalın qalmaqallı qohumu ilə ünsiyyət qura bilib. İsa Əzizovdan az əvvəl onun Meksikada olduğunu göstərən foto haqda soruşub. İ.Əzizov isə cavabında deyib ki, ömründə heç vaxt Meksikada olmayıb.

Hakim müşavirədən sonra qərarı elan edib və İ.Əzizovun barəsində çıxarılmış inzibati həbs qərarını qüvvədə saxlayıb.



## Samir Şərifovdan dollar krediti olanlara sitəmli sözlər

**"Dollar krediti ilə bağlı nəyə görə kiməsə güzəşt edilməlidir?" "Qafqazinfo"nun məlumatına görə, bu sözləri maliyyə naziri Samir Şərifov "hökumət 5000 dollara qədər olan kreditlərə güzəşt edə bilərmi" sualına cavab verərkən deyib.**

Nazir bildirib ki, bu bir qrupa edilsə, sabah başqa qrup da deyəcək onlara da güzəşt olunsun: "Bizdə olan məlumata görə, kredit götürənlər gözləmə mövqeyindədir ki, güzəşt olacaq. Buna görə ödəmirlər. Digər tərəfdən, hər bir kəs kredit götürərkən hansı valyuta götürdüyünü bilir. Banklar xeyriyyə təşkilatı deyil. Onlar bir tərəfdən kredit verirsə, digər tərəfdən sizdən əmanət alır. Dövlət kompensasiya məsələsində əhaliyə sosial yardımlar verir. Həm də qeyd olunan məbləğ çox böyükdür. Dövlət niyə bankla müştəri arasına girməlidir? Vaxtilə yüksək faizlə kredit verəndə, gəlir əldə edəndə heç dövlət yada düşmürdü. Banklar öz müştəriləri ilə bağlı məsələni öz aralarında həll etsin. Faizlərdən azaltsın, ödəniş müddətini uzatsın və s. Bu məsələdə Mərkəzi Bank da banklara güzəşt edə bilər".

## 4 milyard borc söhbəti-nazir nə deyir?

**"Hazırda bankların konsolidasiyası gedir". Modern.az saytı xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov jurnalistlərlə brifinqdə deyib.**

O qeyd edib ki, hazırda Azərbaycanın xarici borclanmaya getməsi gündəmdə deyil:

"Dünya Bankı və Asiya İnkişaf Bankı ilə əlaqələr genişləndirilir. Amma burada Azərbaycanın 4 milyard dollar borca getməsi məsələsi müzakirə mövzusu deyil".

# "Donuz qripi" təhlükəsi: məktəblər dezinfeksiya olunur




**"Azərbaycanda insanların sıx toplaşdığı yerlərdə dezinfeksiya tədbirləri mütəmadi olaraq həyata keçirilir. Cari ilin tədbirlər planına da uyğun olaraq, dezinfeksiya tədbirləri tələb olunan ictimai yerlərdə həyata keçirilir. Bu işlər sırf "donuz qripi" ilə əlaqədar aparılmır".**

Bunu Azərbaycan Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov deyib.

Onun sözlərinə görə, yanvarın 23-dən etibarən "donuz qripi" ilə əlaqədar məktəb və məktəbəqədər müəssisələrdə dezinfeksiya işlərinin aparılmasına başlanılıb. Dezinfeksiya tədbirləri ölkənin 4 böyük şəhəri - Bakı, Sumqayıt, Gəncə və Mingəçevirdəki təhsil müəssisələrini əhatə edir.

Z.Kazımov qeyd edib ki, göstəriş olarsa, digər rayon və şəhərlərdə də dezinfeksiya tədbirləri həyata keçiriləcək: "Nazirin əmri ilə bu işlər hələlik məktəbəqədər təhsil müəssisələri və məktəblərdə aparılır. O cümlədən insanların sıx toplaşdığı yerlərdə mütəmadi olaraq dezinfeksiya işləri görülür".

Əhalinin sıx toplaşdığı yerlərdən biri olan Bakı Metropoliteninin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev isə bildirib ki, metropolitendə "donuz qripi"nə qarşı dezinfeksiya işlərinin aparılması üçün Səhiyyə Nazirliyi tərəfindən müraciət daxil olub: "Biz dezinfeksiya tədbirlərinin aparılmasına tam hazırıq. Metropolitenin özünün də sanitar-epidemioloji qrupu var. Bu işi nazirliyin müvafiq qurumları ilə birgə görməliyik".



# "Gülüstan" sarayı çat verdi

**""Gülüstan" sarayının həm arxa, həm də ön hissəsində istinad divarları var. İstinad divarları üzlük daşlarla örtülüb. Həmin divarlarda təxminən 3-5 milli metr ölçüsündə çatlar müşahidə olunub".**

APA.az xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov deyib.

O bildirib ki, Şəhidlər Xiyabanındakı "Əbədi məşəl" kompleksinin sağ tərəfində, Bayıl dərəsi deyilən ərazidəki istinad divarlarında da müəyyən çatlar əmələ gəlib: "Bunlar kiçik ölçülü çatlardır. Ümumilikdə isə elə bir gərgin, qorxulu vəziyyət yoxdur. Qar yağıb, qarın əriməsindən sonra gözləmək lazımdır görək ümumi vəziyyət necə olacaq".

**Ə. Qaralov qeyd edib ki, adıçəkilən ərazilərdə daima lokal sürüşmələr baş verib:** "Həmin ərazilər sürüşməyə meyllidir. Sonuncu dəfə 2000-ci ilin mart ayında "Əbədi məşəl" kompleksinin qarşısında təxminən 37 metrə yaxın şaquli yatım baş verdi. Böyük bir kütlə oturdu. Neftçilər prospekti tərəfində asfalt örtük qalxmışdı. Qeyd olunan ərazilərdə mütəmadi olaraq müşahidələr aparılır. Hazırda bizim mütəxəssislər tərəfindən müşahidələr davam etdirilir".

# Əfv Komissiyasının tərkibi dəyişəcək



**Prezident yanında Əfv Məsələləri Komissiyasının tərkibinə yenidən baxıla bilər. Bu barədə azvision.az-a komissiyadan məlumat verilib.**

Bildirilib ki, bir neçə üzvün dünyasını dəyişməsi ilə əlaqədar komissiyanın tərkibinin yenidən formalaşdırılması gözlənilir.

Qeyd edək ki, 21 nəfərdən ibarət olan Əfv Komissiyasının bir neçə üzvü dünyasını dəyişib, iki nəfər isə komissiyadan çıxarılıb.

Hüseyn Cavidin ev muzeyinin direktoru Turan Cavid, Zəlimxan Yaqub, Vaqif Səmədoğlu, AMEA-nın Dilçilik İnstitutunun sabiq direktoru Ağamusa Axundov, Zahid Qaralov dünyasını dəyişib.

Ombudsman Elmira Süleymanova isə bir müddət əvvəl Əfv Komissiyasının tərkibindən çıxıb.

Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov da komissiyanın üzvlüyündən çıxarılıb.

Hüquq müdafiəçisi, millət vəkili Çingiz Qənizadə Əfv Komissiyasının tərkibinə yenidən baxılmalı olduğunu bildirib.

Deputat hesab edir ki, komissiya işlək, bacarıqlı və savadlı şəxslərdən ibarət olmalıdır: "Komissiyanın tərkibində millət vəkilləri, QHT nümayəndələri iştirak edirlər. Yeni tərkibdə Azərbaycanın qanunlarını, hüquq sistemini mükəmməl bilən şəxslər təmsil olunmalıdır. Ziyalı baxışı ilə hər şey tamamlana bilməz. Burada faktlara, törədilən əmələ, ərizələrə hüquqi qiymət verilməsi, onun ictimai təhlükəlilik dərəcəsi, azadlığa çıxan şəxsin cəmiyyət üçün yararlı olub-olmaması məsələsi müzakirə predmeti olmalıdır. Hesab edirəm ki, Əfv Komissiyasına yenidən baxılmalıdır".

# Akif Nağı İran səfiri ilə görüşüb



**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri akif Nağı İran İslam Respublikasının Azərbaycandakı səfiri Möhsün Pakayinlə görüşüb. QAT sədri səfirə Azərbaycan, İran, Türkiyə, Gürcüstanın Qeyri-Hökumət Təşkilatlarının iştirakı ilə yaradılması nəzərdə tutulan "İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forum" haqqında, forumun məqsədi, hazırlıq işlərinin gedişi, Bakıda keçirilmiş ilk iclas, Türkiyədə keçiriləcək ikinci iclasla bağlı məlumat verib.**

Musvat.com-a verilən məlumata görə, Akif Nağı xüsusi olaraq vurğulayıb ki, forumun məqsədi region ölkələrinin xoş münasibətlərinin inkişafına, münaqişələrin həllinə, ölkələrin hər birinin ərazi bütövlüyünə və digər vacib məsələlərə ictimai dəstəyin verilməsindən ibarətdir. Səfir təşəbbüsü müsbət dəyərləndirdiklərini, dəstək verməyə hazır olduqlarını bildirib, forumun işinə uğurlar arzulayıb.

❑ **Musavat.com**

# İran prezidenti neftin bahalaşacağını söylədi

**İran prezidenti Həsən Ruhaninin sözlərinə görə, neft uzun müddət belə ucuz qalmayacaq, tezliklə bazarda balans yaranacaq. "Neftin qiyməti aşağı səviyyədədir. Düşünmürəm ki, bu, uzun müddət belə davam etsin... Neft istehsal edən ölkələrə təzyiqlər qısa müddətdə balansın geri qayıtmasına gətirib çıxaracaq", - Fransanın beynəlxalq əlaqələr institutundakı çıxışında Ruhani belə deyib.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:



## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Yanvarın 28-də "Bakıelektrostamp" zavodunun konfrans zalında Zülfüqarlı qardaşlarının zavodlarında çalışmış əmək kollektivlərinin 300-ə yaxın üzvü, zavod rəhbərliklərinin iştirakı ilə mətbuat konfransı keçiriblər. Kollektiv üzvləri zavodların qanuni sahiblərinə qaytarılmasını və iş yerlərinin açılmasını tələb edirlər.**

# Zülfüqarlı qardaşlarının zavodlarının işçiləri prezidentə müraciət etdilər

## "Rasim Əliyev çörəyimizi əlimizdən alıb, minlərlə insanın dolandığı zavodları iflic edib"





dən fəaliyyəti zorla dayandırıldığı günədək Zülfüqarlı qardaşları "Bakı Elektroştamp" ASC-yə 25 milyon manat civarında sərmayə yatırıblar".

**O deyib ki, Zülfüqarlı qardaşları 2003-cü ilin iyununda yenə də mərhum prezidentin məsləhəti və göstərişi ilə fəaliyyətini tamamilə dayandırmış "Bakı Poladtökmə" zavodunu özəlləşdirərək "Bakı Poladtökmə" ASC-ni yaratdılar:** "Həmin müəssisədə 800-dək rəyini kəsdilər. Loğman Zülfüqarlı bu zavodu alanda burada istehsal gücü sıfır idi. Qısa müddətdə istehsal gücünü ayda 8-10 min tona çatdırdı. Bu adam menecerdir".

### "Qaytarın zavodları sahiblərinə. Ölkə prezidentinə qarşı getməyin!"

**Tədbirdə iştirak edən fəhlə qadın isə deyib ki, bu gün Azərbaycan iqtisadi baxımdan çox pis durumla üz-üzədir:** Burada Rasim Məmmədovun maşınları nümayiş olundu. Mənim 4 min manat pulumu vermirlər, deməli, dilənçidirlər, fəhləyə pul vermək olmaz? Rasim Məmmədov zavodları sahibindən alıb bu bir tərəfə, üstəlik, biz işçilərin pulunu da vermir. Fəhlə ilə də kəllə-kəlləyə gəlirlər. Bu adamların devizləri "tapdalayım keçim"dir. Mən zəhmət haqqımı istəyirəm. Loğman Zülfüqarlını mənim gözümün qabağında buradan

### "Ümidimiz cənab prezidentədir"

**Tədbirdə zavodun icraçı direktoru Ramiz Əhmədov çıxış edərək bildirib ki, mətbuat konfransı keçirməyə məcburdurlar:** "Çünki kollektiv üzvlərinin cənab prezidentə müraciətləri əngəllənir. Əminik ki, dövlət başçısı İlham Əliyevə mətbuat vasitəsilə müraciət edəndən sonra bizim zavodlar açılacaq. Möhtərəm prezident, siz 2016-cı ili dərin islahatlar ili adlandırdınız. İnanırıq ki, zavodlar sahiblərinə qaytarılacaq və biz yenidən işlə təmin olunacağıq. Biz kollektivlərimiz adından cənab prezidentə müraciət edirik ki, bizim zavodların sahiblərinə qaytarılması, yaradılan əngəllərin aradan qalxmasına göstəriş versin. Ümidimiz cənab prezidentədir".

**R.Əhmədov deyib ki, Zülfüqarlı qardaşları dağılmış, istehsal gücü sıfıra bərabər zavodları aldıqdan sonra müasir tələblərə cavab verən məhsullar istehsal edən müəssisələrə çeviriblər:** "Sahibkarlar Nurəddin və Loğman Zülfüqarlı qardaşları 2002-ci ildə Heydər Əliyevin iş adamlarına çağırışı ilə Rusiyada qurduqları biznes fəaliyyətlərini yarımçıq buraxaraq Azərbaycana geri dönüblər. 2002-ci ilin mayında mərhum Heydər Əliyevin məsləhəti və göstərişi ilə o zaman ölkəmizdə fəaliyyətini tam dayandıran, bizim hazırda olduğumuz "Bakı Elektroştamp" zavodunu özəlləşdirərək "Bakı Elektroştamp" ASC-ni yaratdılar. Müəssisədə 400-ə qədər yeni iş yerləri açıldı. Müəssisə sahibkarlar tərəfindən özəlləşdirildiyi gündən insan işlə təmin edildi. Hər iki müəssisənin istehsal etdiyi məhsullar daxili istehlakçıların tələbatını ödəməklə yanaşı xarici bazarlara da uğurla ixrac olunurdu ki, bunun da nəticəsində ölkəmizə külli miqdarda xarici valyuta daxil olurdu. Qısa vaxtda Rusiya, İran, Çin, Hindistan, Ukrayna, Türkiyə kimi dövlətlərin iri şirkətləri ilə çoxşaxəli biznes əlaqələri quruldu".

R.Əhmədov bildirib ki, zavodlar zor gücünə Zülfüqarlı qardaşlarından alınandan sonra 1750 nəfər işçi işsiz qalıb.

R.Əhmədovun sözlərinə görə, zavodların talanmasına "Baku Steel Company"nin sahibi Rasim Məmmədov rəhbərlik edib. Zavodlar Gəray Məmmədov adlı çobanın adına rəsmiləşdirilib. Məsələnin üstü açılandan sonra isə zavodlar Kərəm Həsənovun birinci müavini Rüstəm Şahbazovun sürücüsünün adına rəsmiləşdirildi.

### "Nə qarayaradır ki, düşüb Azərbaycan iqtisadiyyatının canına?"

**"Bakıpoladtökmə" zavodunun kadrlar şöbəsinin rəisi Fazil Hüseynov deyib ki, zavodun bünövrəsinin qoyulmasından son zəbt olunduğu günlərə qədər orada işləyib:** "Haradansa bir Rasim Məmmədov peyda oldu, gəlib mənimlə bərabər zavodun kollektivini çölə atdırdı. Sual verirəm: Rasim Məmmədov kimdir? Nə qarayaradır ki, düşüb Azərbaycan iqtisadiyyatının canına? Bu qədər insanın işsiz qoyulması kimə lazımdır? Loğman Zülfüqarlını ölkədən didərgin saldılar. Zavodların da işini iflic etdilər. Bizlərin çörəyini kəsdilər. Loğman Zülfüqarlı bu zavodu alanda burada istehsal gücü sıfır idi..."

"Buradakı insanların yarıdan çoxu dilənçi durumundadır. Axı biz düşmən deyilik. Niyə bizə qarşı belə edirlər? Qoysunlar işimizi işləyək. Bu yaşda hara gedək? Metallurgiya sənayenin bel sütunudur. Əgər metallurgiya varsa, deməli, dövlətin sənayesi, iqtisadiyyatı yaxşı inkişaf edir. Tələbimiz odur ki, zavodlarımızı sahiblərinə qaytarsınlar. Bizlər Zülfüqarlıların iş bacarığına bələdik. Qaytarın zavodları sahiblərinə. Ölkə prezidentinə qarşı getməyin! Biz iş istəyirik".

**Kollektivin üzvü Vaqif Musayev deyib ki, üst-üstə 10 min nəfər Zülfüqarlı qardaşlarının zavodlarından dolanırdı:** "Mən bu gün bura gəlməyə yolpulu tapa bilmirdim. Borcun içində batırıq. Banklar bir tərəfdən bizdən borcları istəyir. Mən ailə başçısıyam, uşaqlar yemək istəyir. Evimi dolandıra bilmirəm. Prezident İlham Əliyev, səsimizə səs verin. Ailəmizi dolandırmaq istəyirik. Biz işləmək istəyirik. Biz prezidentimizə inanırıq. Sahibkarı qaytarın, zavodu işlətsin, bizlərə çörək versin!"

### "Rasim Məmmədov zavodları sahibindən alıb"

**Nailə Həsənquluqızı zavodlar zəbt olunana qədər kimyaçı-mühəndis vəzifəsində çalışıb:** "Sahibkarı çıxardılar. Bizə dedilər ki, öz hesabınıza işdən azad olma haqda ərizə yaz. Yazdıq. Amma bizə son haqq-hesabı vermədilər. 10-12 nəfər 2014-cü ildə məhkəməyə müraciət etmişik. Bu günə qədər haralara müraciət etməmişik? Əmək Müfəttişliyi, Prezident Administrasiyası, ombudsmanlıq cavab yazırlar ki, haqq-hesabınız verilməlidir. yola saldılar. Ona imkan vermədilər ki, kabinetindən şəxsi əşyalarını götürsün. Pencəyini götürüb çıxdı".

**Keşlə qəsəbəsindəki zavoda basqın zamanı xəsarət alan işçi Zahid Hüseynov deyir ki, Rasim Məmmədovun quldurluğuna son qoyulmalıdır.**

**Qarabağ müharibəsi iştirakçısı, fəhlə Natiq Qasımov iş yerlərinin qaytarılmasını istəyir:** "10 qardaşıq. Hamımız döyüşmüşük. Xəstə anamız var. İşsiz-gücsüzük. Anam deyir ki, məni də apar, sözümü prezidentə deyim. Bizi Rasimin quldur dəstəsi işsiz qoyub. Onu axtarıram ki, özümü maşınının altına atım. Başqa yolum qalmayıb. Bizim zavodu qaytarın".

### "Bu adam dövlətə qarşı, ölkəyə qarşı iqtisadi sabotajla məşğuldur"

**Səhmdar Zahir Beydullayev deyir ki, zavoda gələndə özü də durumdan qorxuya düşüb:** "İndi zavoda baxıram, elə bil ki, bura bomba düşüb. Bu adamı durdurun. Kimdir Rasim Məmmədov? O, ölkənin iqtisadiyyatını niyə dağıtmalıdır? Bu adam dövlətə qarşı, ölkəyə qarşı iqtisadi sabotajla məşğuldur. Bu qədər adamı işsiz qoymaq nə deməkdir? Biz divident ala bilmirik".

**1984-cü ildən zavodda işləyən Tamilla Quliyeva deyib ki, Zülfüqarlılar tamamilə dağılmış müəssisəni ayağa qaldırıblar:** "Pulsuz yemək, isti geyim, bayramlarda bizə ərzaq verdilər. Zavodun kollektivə olan bütün köhnə borclarını verdilər. Bizim kollektivdə elə fəhlələr var ki, mühəndislərdən savadlıdır".

❑ E.MƏMMƏDƏLİYEV

# İntizamsız Şərifov və Rüstəmovdur...



Elşad MƏMMƏDLİ

**Azərbaycan dövləti və xalqı tarixən çox çətinliklər, ağır sınaqlar görüb. Şükürlər olsun ki, bütün bunlara rəğmən öz mövcudluğunu qoruyub saxlayıb və bu gün də müstəqil dövlət kimi ayaqdadır Azərbaycanımız. Və indi daha bir sınaqla üz-üzədir ölkəmiz. Dünyada hökm sürən siyasi çaxnaşmalar, geosiyasi maraqların toqquşması, qlobal iqtisadi tənəzzül, neftin qəfildən 3-4 dəfə ucuzlaşması səbəbindən bizim dövlətimiz ciddi maliyyə problemləri yaşayır.**

Ancaq biz böhranı bu cür ağır yaşamaya da bilərdik. Əgər korrupsiya və rüşvətxorluq, inhisarçılıq heç olmasa 2010-cu ildən başlayaraq aradan qaldırılmağa başlansaydı, iqtisadi və siyasi islahatlar aparılsaydı, qeyri-neft sektoru inkişaf etdirilsəydi, ələlxüsus hökumətin maliyyə sektoruna nəzarət edən şəxsləri məsuliyyətli olsaydılar, indiki acınacaqlı durum ortaya çıxmazdı. Nəsə, artıq bunlar barədə danışmaq da gecdir. İndi yalnız baş verənlərin acı fəsadlarının aradan qaldırılması barədə düşünməklə yanaşı, xalqı daha ağır duruma salmamaq haqda da fikirləşmək, tədbirlər görmək gərəkir. Ancaq hələlik görünən budur ki, mövcud iqtisadi komanda bunu ya edə bilmir, ya da etməkdə maraqlı deyil.

Əksinə, yenə də maliyyə sektoruna məsul şəxslər qeyri-ciddi, reallıqları əks etdirməyən açıqlamalar verirlər.

Maliyyə naziri Samir Şərifov bir neçə gün öncə ANS-ə müsahibəsində az qala yaranmış duruma görə xalqı günahkar çıxardı. O dedi ki, xalq "yastığının altında saxladığı" pulları banka qoysa, maliyyə sahəsində vəziyyətin düzəlməsinə köməklik etmiş olarlar. Nazir camaatı banklara inanmağa səslədi. Açıqca dedi ki, narahat olmayın, aparın pullarını əmanət şəklində banka yatırın, biz cavabdehik. Ancaq bundan cəmi 2 gün sonra ölkədə bankların bağlanmasına başlanıldı. Artıq 4 bank qapadılıb, 2 bank birləşdirilib, daha 3 bankın birləşməsi və bir neçə bankın bağlanması haqda anons verilib. İndi Məmməd, Əhməd hansı inamla zülmlə qazandığı 5-10 min manatı aparıb banka əmanət qoysun? Əhalidə banklara qarşı heç bir inam yoxdur və son olaylar nazirin açıqlamasını de-fakto təkzib etdi...

Həmçinin belə bir görüntü yarandı ki, hökumət təmsilçisi özü də nə baş verəcəyini bilmir və ya gerçəkliklər xalqdan gizlədilir. Bütövlükdə hökumətə qarşı inamsızlıq yaranır bununla...

Digər bir fakt. Neçə vaxtdır dollar kreditlərinin heç olmasa 1.05 manat hesabı ilə ödənilməsi məsələsi gündəmdədir. Deputatlar bildirirdilər ki, bu məsələ hökumətlə razılaşdırılıb. Samir Şərifov da müsahibəsində dedi ki, bu məsələ hələ qapanmayıb. Üstəlik, xalqda ümid yaradan mövqe sərgilədi ki, bu kreditlər çox yüksək faizlə verilib, banklar ötən illər ərzində bu kreditlərdən yüksək gəlir əldə ediblər, indi güzəştə də getmək mümkündür. Ancaq bundan 2 gün sonra Milli Bankın rəhbəri Elman Rüstəmov bu məsələdə sanki xalq günahkarmış kimi açıqlama verdi. O bildirdi ki, dollar kreditlərinə güzəşt edilməsi maliyyə intizamsızlığı yarada bilər. Hansı ki, maliyyə intizamsızlığını illərdir Elman Rüstəmov özü edir!

Mərkəzi Milli Bank ötən 1 il ərzində 10 milyard manatı boş-boşuna xərclədi ki, bəs devalvasiyanın qarşısını alırıq, manatı möhkəmlədirik, axırda da dedilər alınmadı, bir ildə ikinci dəfə devalvasiyaya getdilər. 10 milyard manat məhz Elman Rüstəmovun maliyyə intizamsızlığının qurbanı oldu...

51 faizi dövlətə məxsus olan Beynəlxalq Bank vasitəsilə ötən bir neçə ildə 6 milyard manat pulun yoxa çıxarılmasına Mərkəzi Milli Bank, Maliyyə Nazirliyi göz yumub. Bu da maliyyə intizamsızlığının daha bir əyani göstəricisidir.

Məhz bu intizamsızlıqlar, bank sektorunda qeyri-sağlam mühit olması üzündən manat ucuzlaşdı, xalq, dövlət belə ağır duruma düşdü. Ancaq nəticə çıxarmaq əvəzinə yenə də xalqı suçlamaqda davam edirlər. Axı xalq da sizi və etdiklərinizi görür, heç nə edə bilmirsinizsə, vəzifənizi təhvil verin, yaxud da eləcə susun...

YENİ MÜSAVAT
N 21 (6342) 29 yanvar 2016

# Prezident səfirləri geri çağırır - Məmmədyarovun fiaskosu

**Prezident İlham Əliyev Azərbaycanın bir neçə ölkədəki səfirinin vəzifələrindən azad olunmaları barədə sərəncam imzalayıb. Qeyd edək ki, son aylarda ölkə başçısının belə sərəncamlarının tez-tez şahidi oluruq. Bu isə bəzi müəmmalara yol açıb. Diqqətçəkən nüanslardan biri budur ki, bəzi istisnalar olmaqla, bir yox, bir neçə ölkədə səfir kimi fəaliyyət göstərən şəxslər barədə belə qərarlar verilir.**

## Zahid Oruc: "Heç bir iş görməyən, yalnız olduqları ölkələrdə müəyyən bayram tədbirlərinə qatılan səfirlərimiz var"



Bu isə bəzi iddiaların ortaya atılmasına səbəb olub. Belə iddialar səsləndirilir ki, ölkəmizdəki iqtisadi böhran səbəbindən bəzi səfirliklər bağlanacaq. Eyni zamanda bir-birinə yaxın ölkələr olmasına baxmayaraq, hər ölkədə bir nümayəndəliyimiz olan dövlətlərin bir neçəsinə bir səfir təyin olunacaq.

Səfirlərin tez-tez geri çağırılması ilə bağlı başqa bir iddia da var. Bu sərəncamları xarici işlər naziri Elmar Məmmədyarovun idarəetmə və xarici siyasətinin fiaskosu kimi qələmə verənlər də var.

**Politoloq Qabil Hüseynli Azərbaycanın qənaət rejiminə keçdiyini bildirdi:** "Büdcəyə ciddi qənaət etməklə, hökumət strukturlarının fəaliyyət göstərməsinə çalışılmalı və müəyyən işlər görülməlidir. Belə işlərdən biri Xarici İşlər Nazirliyinin dünyanın müxtəlif ölkələrinə təyin edilmiş səfirlikləri və konsulluqlarının işlərinin təkmilləşdirilməsidir. Biz ABŞ kimi nəhəng dövlət deyilik ki, dünyanın bütün ölkələrində səfirliklər saxlayaq, bunun üçün də böyük vəsait ayıraq. Azərbaycan bir neçə yaxın ölkəyə bir səfir təyin edə bilər. Məsələn, Ruminiyada işləyən səfir Bolqarıstan, Bosniya və Hersoqovina, Çernoqoriya kimi ölkələrdə də missiyasını həyata keçirə bilər. Səfirlərimizin işlərini təkmilləşdirməklə, onların üzərinə müəyyən missiyalar qoymaqla, bir xeyli maddi qənaət mümkündür. Xaricdə səfirlik saxlamaq çox böyük vəsait aparır. Səfirlik xərcləri dövlətin maliyyə vəsaitlərinin xərcləndiyi çox ciddi sahələrdən biridir. Bu baxımdan burada təəccüblü heç nə görmürəm. Səfirliklərin sayının azaldılması, səfirlərin rotasiyası, konsulluqların ixtisara salınması və bu kimi addımlar Azərbaycan büdcəsinə qənaət xarakteri daşıyır. Eyni zamanda səfirlərin məsuliyyətini və işgüzarlıq fəaliyyətini yüksəldir".

**Politoloq belə sərəncamların XİN ətrafında cərəyan edən hadisələrlə bağlı olması fikirlərini qəbul etmir:** "Bunu o cür qiymətləndirə bilmərəm. Çünki bu gün ölkədə əgər iri dövlət qurumları birləşdirilirsə, bəzi yerlərdə ixtisarlara gedilirsə, idarəetmə strukturlarında reformalar həyata keçirilirsə, bu, metodların XİN-ə tətbiq edildiyini göstərir. Bunun üçün başqa yozmalara ehtiyac yoxdur. Nazirliyin hazırda özündə struktur islahatları aparılır. Bütün bunlar qənaət rejiminə keçilməsi ilə bağlıdır".

**İqtidaryönlü deputat Zahid Oruc hesab edir ki, hər bir ölkədə mütləq səfirlik, konsulluğun olması elə də vacib deyil:** "Dünyada 193 tanınmış ölkə var. Azərbaycan bu dövlətlərdən ibarət öz səfirlik coğrafiyasını yaradıb. Yəni hansı ölkədə nümayəndəliyinin olmasını vacib hesab edib. Düşünmürəm ki, hər bir ölkədə Azərbaycan təmsil olunmalıdır. Son səfir geri çağırılmaları müddətin bitməsi və rotasiyalarla bağlıdır. Etiraf etmək lazımdır ki, səfirliklərin içərisinə yerimək, onların işlərinə əl qoymaq kimi hallar çox olub. Bu insanlara müxtəlif ölkələrin daim maraqları olub. Amma düşünmürəm ki, Azərbaycan bu yollarla büdcəyə qənaət etmək istəyir. Onu da etiraf etmək lazımdır ki, zəif, heç bir iş görməyən, yalnız olduqları ölkələrdə müəyyən bayram tədbirlərinə qatılan səfirlərimiz var. Biz bunun xarici ölkələrdə səfərlərdə olduğumuz zaman şahidi olmuşuq. İstəmirəm ki, bu barədə geniş danışım və əlavə mövzu yaransın. Onlara daim çatdırmışıq ki, zəif nöqtələri doldurmaq lazımdır".

**Deputat səfirliklərin birləşdirilməsi yollarına da gediləbiləcəyini vurğuladı:** "Xarici İşlər Nazirliyi açıqlama yaydı ki, kütləvi ixtisarlara gedilə bilməz. Səfirlərin geri çağırılması birbaşa ölkə başçısının səlahiyyətindədir. Elmar Məmmədyarovla bağlı olan məsələyə gəlincə, deyə bilərəm ki, hər hansı bir naziri vəzifəsindən azad etmək prezidentin səlahiyyətinə aiddir. Hesab etmirəm ki, səfirləri geri çağırmaqla dövlət başçısı naziri vəzifəsindən azad etmək istəsin. Baxmayaraq ki, Dağlıq Qarabağ probleminin həllinin içərisində olan bir nazirlikdir. Bu məsələnin nazirlik ətrafında gedən proseslərlə bağlı olmadığına əminəm. Elmar Məmmədyarovun müsbət işləri ilə yanaşı, onun səfirliklər və digər sahələrlə bağlı atdığı addımlar tənqid edilməsinə səbəb olub. Belə tənqidləri süngü ilə qarşılamaq lazım deyil. İstənilən dövlət məmuru heç bir məsələdən sığortalanmayıb. Xarici işlər nazirinin dəyişdirilməsi üçün səfirləri geri çağırmağa ehtiyac yoxdur".

Məsələ ilə bağlı Xarici İşlər Nazirliyi ilə əlaqə saxladıq. Qurumun mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev səfirlərin geri çağırılması ilə bağlı səlahiyyət prezidentə məxsus olduğuna görə bu barədə açıqlama verməkistəmədiyini bildirdi.

❑ **Cavanşir ABBASLI**



# Neft erası bitdi, demokratiyanın önü açılacaq?

## Mehman Əliyev: "Xaricdən demokratik proseslərə təsirlər getdikcə ciddiləşəcək"

**Azərbaycanda neft erası başa çatır. Ölkə prezidenti də artıq bəyan edib ki, biz postneft dövrünü yaşayırıq. Neft erasının başa çatmasının isə ölkəmizə iqtisadi və sosial baxımdan təsirləri ortadadır. Bəs neft amilinin ortadan qalxmasının Azərbaycanda demokratik proseslərə də hansısa şəkildə təsiri olacaqmı? İndiyə qədər neftə görə Azərbaycanda demokratik proseslərə biganə olan beynəlxalq birliyin münasibətinin bundan sonra dəyişməsi gözlənilirmi?**

"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, hər iki suala müsbət cavab vermək üçün əsaslar var. Neft amilinin xeyli dərəcədə aradan qalxması demokratiyaya təsirsiz ötüşməyəcək: "Xatırlayırsınızsa, 1990-cı illərdə neft çox ucuz olanda Azərbaycanda demokratiya az-çox var idi. Ölkədə siyasi partiyaların fəaliyyəti üçün müəyyən imkanlar var idi, kütləvi toplaşmaq azadlığı, azad media mövcud idi. Neftin qiyməti artdıqca, neft amili möhkəmləndikcə, demokratiyanın durumu ağırlaşdı, demokratiya boğuldu. İndi neftin qiyməti təxminən 1990-cı illərdəki qiymətə yaxınlaşıb, dünya bazarına İran nefti çıxacaq və sair faktorlar neft amilini aradan qaldırır. Bu, o deməkdir ki, biz yenidən qayıdacağıq 1990-cı illərdəki vəziyyətə. Demokratiyanın, azadlıqların çərçivəsinin genişləndirilməsi qaçılmaz olacaq. Çünki islahatlar aparılmalıdırsa, bu qaçılmazdır".

**M.Əliyev vurğuladı ki, neft amili aradan qalxdıqca demokratiyaya beynəlxalq birliyin dəstəyi artacaq:** "Demokratik proseslərə artıq dəstək var. ABŞ Konqresinin Helsinki Komissiyasında qəbul edilən və Konqresdə baxılması gözlənilən "Azərbaycan demokratiya" Aktı da bunun bir sübutudur. Demokratik proseslərə təsirlər getdikcə ciddiləşəcək, əməkdaşlıq genişlənəcək".

❑ **E.SEYİDAĞA**

# Artur Rəsi-Zadənin əvəzolunmazlığının sirri

## Qubad İbadoğlu: "İndiki situasiyada da onun danışmaması daha sərfəli görünür"



**Ölkədə bu boyda hadisələr baş verib, amma Artur Rəsi-Zadə susur. Baş nazirin sirri nədir ki, danışmır, dinmir, amma yenə də ölkənin ikinci adamı postunu tutur? A.Rəsi-Zadənin öz mövqeyini qoruyub-saxlamasının səbəbi nədir?**

Ölkəmizdə baş verən kəskin devalvasiya, neft gəlirlərinin ciddi şəkildə azalması, bahalıq, narazı elektoratın gündən-günə artması fonunda hamı çevik hökumət qurmaqdan danışır. Baş nazir isə prezidentin müşavirələrində görünür, susur və gedir...

Sanki bu ölkədə baş verənlərin Nazirlər Kabinetinə rəhbərlik edən şəxsə aidiyyəti yoxdur. Bəzi iqtisadçı deputatlar da vaxtaşırı öz müsahibələrində baş nazirin qəbulunda olduqlarını, vəziyyətlə bağlı ciddi müzakirələr apardıqlarını, səsləndirdikləri təkliflərə



Qubad İbadoğlu

A.Rəsi-Zadənin həssaslıq nümayiş etdirdiyini vurğulayıblar. Ancaq qəribəsi odur ki, konstitusiya ilə ölkənin ikinci adamı olan baş nazir nədənsə, ictimaiyyət arasında görünməməyə üstünlük verir. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Hadi Rəcəbli də dolayısı ilə hökumət başçısına "ilişib". "Pensiya yaşı çatıb gününü keçirən məmurlara "xüdahafiz" deməliyik" deyib. A.Rəsi-Zadənin isə təqaüd yaşından 15 ildən çox keçib. Düzdür, Nazirlər Kabinetindən bildirirlər ki, Artur müəllim hər gün səhər saat 9-a qalmış işə gəlir və iş gününün sonunadək çalışır.

A.Rəsi-Zadənin bu yaşda da postunda saxlanılmasının sirri maraq doğurur. Hətta son vaxtlar islahatların köhnə komanda ilə aparılmasının qeyri-mümkünlüyünün davamlı şəkildə vurğulandığı şəraitdə baş nazirin daha gənc kadrla əvəzlənməməsi müəmmalı görünür.

**İqtisadçı alim Qubad İbadoğlu "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda hazırkı siyasi sistemin xarakterinə görə baş nazir nominal persona olmalıdır:** "Çünki əslində hakimiyyətin mövcud strukturunda icra hakimiyyətinə prezident rəhbərlik edir. İcra hakimiyyətinin fəaliyyəti də Prezident Administrasiyasından idarə olunur. Nazirlər Kabineti sovet dövründə olduğu kimi, daha çox təsərrüfat işləri ilə məşğuldur. Odur ki, onların nə dövlət siyasətinin müəyyənləşdirilməsində, nə də icrasında əhəmiyyətli rolu yoxdur. Hesab edirəm ki, bu, əsas önəmli amildir". **Q.İbadoğlu bildirdi ki, ikinci amil baş nazirin özünün xarakteri ilə bağlıdır:** "Onu nominal baş nazir olmaq qane edir. Çünki danışmaq və bəyanat vermək qabiliyyəti aşağıdır. Baş nazirin ən məşhur çıxışlarından olan "təzə xiyar bahadır, camaat getsin ucuz turşu xiyar alsın" sözləri olub. Yəni indiki situasiyada da onun danışmaması daha sərfəli görünür".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 21 (6342) 29 yanvar 2016

**Son zamanlar bəzi elektron KİV-lərdə Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə ilə bağlı sensasion materiallar dərc olunur. Komitə sədri ilə bağlı yazılarda hətta onun keçmiş MTN şefi Eldar Mahmudovla hansısa qaranlıq əlaqələrindən bəhs olunur.**

# Ziyad Səmədzadə adının Eldar Mahmudovla hallanmasına reaksiya verdi

## Komitə sədri "barəmdə yazılanlar şər-böhtandır" dedi

Yazılanlara görə, Satınalmalar üzrə Dövlət Agentliyinin ləğvinin səbəbi heç də büdcəyə qənaətlə bağlı deyilmiş. "İddia olunur ki, ölkə başçısı Ilham Əliyevin bu addımı "MTN işi" ilə əlaqədardır. Məlumatda bildirilir ki, Eldar Mahmudov və dəstəsi sözügedən quruma da nüfuz edirmiş. "Beləliklə də tenderlərin çoxu Eldar Mahmudova və onun yaxın ətrafına aid olan şirkətlərə verilirmiş" - azadlıq.info yazıb.

"Təzadlar" qəzetindəki materialda isə bildirilir ki, ləğv olunmuş qurumun rəhbəri İsgəndər Çədirli deputat Ziyad Səmədzadənin bacısı oğludur. Deputatın oğlu Elşad Səmədzadə bir müddət İsgəndər Çəndirlinin müavini olub. Yeni məlumatlara görə, Ziyad Səmədzadənin Eldar Mahmudovla isti münasibətləri olub. Hətta deputatın yaxın qohumu keçmiş MTN şefinin dəstəyi ilə "Şəhriyar" klubunun direktoru təyin edilib. Eldar Mahmudov həmçinin Ziyad Səmədzadənin kürəkənini İqtisad Universitetinə prorektor vəzifəsinə təyin etdirib. İddia olunur ki, bütün bunlar "MTN işi"nin istintaqı zamanı üzə çıxıb. Bildirilir ki, Ziyad Səmədzadə ilə Eldar Mahmudovun münasibətləri ciddi şəkildə araşdırılır. "Ehtimal olunur ki, Eldar Mahmudov və dəstəsinin Satınalmalar üzrə Dövlət Agentliyinə nüfuz etməsində deputatın da rolu var".

Qeyd edək ki, bir müddət öncə də deputatın E.Mahmudovun atası akademik Əhməd Mahmudov haqqında geniş məqalələr, monoqrafiyalar yazdığı və filmlərin çəkilməsində iştirak etdiyi barədə iddialar var idi.

Moderator.az isə təzadlar.az-a istinadən tanınmış iqtisadçı alim, uzun illər AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru olmuş Şahbaz Muradova aid materialı tirajlayıb. "Ziyad Səmədzadə Ali Attestasiya Komissiyasındakı (AAK) bəzi tərəfdarlarının köməkliyi ilə bir daha bu dissertasiya işinin AAK-nın Rəyasət Heyətində təsdiqinə maneçilik törədib...", "Bu dissertasiya işi ətrafında akademik Z.Səmədzadə ilə 4 ildən çox apardığım mübarizə mənim əsəblərimə və institutun işinə çox böyük zərbələr vurub..." - kimi ittihamların yer aldığı yazıda digər ilginc ittihamlar da var. **Müəllif yazır:** "Akademik Z.Səmədzadə mənim institutun direktoru vəzifəsindən çıxmağımda və yerimə i.e.d. İsa Alıyevin seçdirilməsində akademik Əhməd Mahmudovun oğlu, milli təhlükəsizlik naziri Eldar Mahmudovun adından da çox məharətlə istifadə edib. Bu məqsədlə Z.Səmədzadə əvvəlcədən 2008-ci ilin may ayında Əhməd Mahmudovun 85 illik yubileyinin Akademiyanın İqtisadiyyat İnstitutunda keçiriləcəyindən xəbər tutandan



sonra hələ 2007-ci ildən başlayaraq ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, "Konyunkturaya xidmət edən adam" olması xarakterinə uyğun olaraq məndən gizli fəaliyyətə başlamış və general-leytenant Eldar Mahmudovun xoşuna gəlmək məqsədilə əksəriyyəti özünün yaxın ətrafından, keçmiş aspirantlarından, öz övladlarından və yaxın qohumlarından ibarət olan və nə akademik Ə.Mahmudovun özü, nə onun yaradıcılığı, nə də elmi əsərləri ilə heç bir əlaqəsi və tanışlığı olmayan, bu günə kimi Ə.Mahmudovun bircə kitabını belə oxumayan, onun əsərlərinin üzünü belə görməyən adamlardan ibarət bir elmi redaksiya heyəti yaradıb özünün baş redaktorluğu ilə Ə.Mahmudovun guya əsərlərinin məcmusundan ibarət "Azərbaycan iqtisadiyyatının aktual problemləri" (Bakı, 2008, 912 səh.) adlı bir kitab nəşr etdirib. O, bilərəkdən həmin kitabın Ə.Mahmudovun 24 il rəhbərlik etdiyi Akademiyanın İqtisadiyyat İnstitutunda deyil, Azərbaycan Dövlət İqtisadiyyat Universitetində (?) təqdimatının keçirilməsini təşkil edib. Maraqlı burasındadır ki, həmin kitab Akademiyanın İqtisadiyyat İnstitutunun kollektivindən və onun rəhbəri olan məndən gizli hazırlanıb..."

**Bütün bu ittihamlarla əlaqədar komitə sədrinə müraciət etdik. Ziyad Səmədzadənin "Yeni Müsavat"a cavabı belə oldu:** "Barəmdə yazılanlar hamısı şər-böhtandır. Mənim o qədər vaxtım yoxdur ki, sizin adını çəkdiyiniz saytlara vaxt ayırım. Mənim ictimai işim, elmi fəaliyyətim göz qabağındadır".

**Z.Səmədzadə oğlu E.Səmədzadənin adının hallandırılmasını da "şər-böhtan" adlandırdı:** "Mənim ailəm də, ailəmin hər bir üzvü də cəmiyyət üçün nümunə olan övladlardır. Mən fəxr edirəm ki, mənim 3 övladım var, üçü də pak, əqidəli, vətənə qulluq edən insanlardır. Ona görə də bir daha deyirəm, şər-böhtan xarakterli yazılara cavab vermək istəmirəm".

**Komitə sədri Satınalmalar üzrə Dövlət Agentliyinin ləğvinin ona və ailə üzvlərinə heç bir aidiyyətinin olmadığını da bildirdi:** "Heç bu haqda danışmaq da istəmirəm. Cəmiyyəti saf, sağlam əqidəli insanlar irəliyə aparır. Mən də o saflardan biriyəm".

❑ **Cavid TURAN**

# Baş redaktor aksiya xəbərlərinə görə Baş Prokurorluğa çağırıldı



## Zahir Əzəmət: "Anlamıram ki, bizdən nə istəyirlər?"

**Qaynar.info-nun baş redaktoru Zahir Əzəmət Baş Prokurorluğa çağırılıb. Bu barədə baş redaktora prokurorluqdan rəsmi məktub gəlib. "Yeni Müsavat"a açıqlamasında Z.Əzəmət bu çağırışın detalları barədə danışdı. Dedi ki, rəsmi məktubda çağırışın Mətbuat Şurasının apardığı monitorinqlə bağlı olduğu bildirilib.**

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun imzası ilə redaksiyaya daxil olan məktubda aşağıdakılar bildirilib: "Azərbaycan Mətbuat Şurası tərəfindən cari ilin yanvar ayında bəzi internet informasiya resurslarında, o cümlədən rəhbəri olduğunuz qaynar.info internet saytında aparılmış monitorinqin nəticələri barədə materiallar hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa göndərilmişdir. Tərəfimizdən aparılan araşdırmalar zamanı yaranmış zərurətlə əlaqədar 28 yanvar 2016-cı il tarixdə saat 11:00-da Baş Prokurorluğa (Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7) gəlməyiniz xahiş olunur".

**Z.Əzəmət dedi ki, saat 11:00-da onu Baş Prokurorun birinci müavini Rüstəm Usubov qəbul edib. Müsahibimizin sözlərinə görə, mövzu bölgələrdəki etiraz aksiyalarının işıqlandırılması ilə bağlı olub. Mətbuat Şurasının Baş Prokurorluğa müraciətində qaynar.info-nun aksiyalarla bağlı xəbərlərinin əsassız olduğu qeyd olunub. R.Usubov isə öz növbəsində bu xəbərlərin çağırış xarakterli olduğunu bildirərək, xəbərdarlıq edib:** "Mən isə bildirdim ki, rəhbəri olduğum saytda heç bir çağırış ruhlu xəbərlər dərc olunmayıb. Aksiyalarla bağlı adi və bir neçə cümləlik xəbərlər vermişik. Bizim dərc etdiyimiz xəbərlərdə qeyri-adi heç nə olmayıb. Müstəqil mövqeli, korrekt xəbərlər idi. Hətta aksiyalardan çəkilən videokadrların çoxunu yayımlamadıq ki, təşviqedici ola bilər. Amma cəmiyyətdə şayiələr yaranmasın, insanlar aksiyalarla bağlı lazımi informasiyanı alsınlar deyə bir neçə cümləlik xəbərlə kifayətlənmişik. Belə görünür ki, kimlərsə bu iki cümləlik xəbərlərdən də narahatdırlar".

Z.Əzəmət bu məsələdə MŞ-nın mövqeyindən narazılıq etdi. Dedi ki, sözügedən qurum artıq ikinci dəfədir qaynar.info saytını hədəfə çıxarır. Onun sözlərinə görə, MŞ səlahiyyət həddini aşır və sözügedən aksiya xəbərləri ölkənin bütün media orqanlarında dərc edilsə də, bir neçə saytla bağlı təqdimat hazırlayıb.

**Müsahibimiz xatırlatdı ki, bir neçə gün əvvəl APA-da hökumət mənbələrinə istinadla aksiyalarla bağlı xəbərləri dərc edən saytların cəzalandırılacağı barədə məlumatın yer alması və bundan dərhal sonra Mətbuat Şurasının Baş Prokurorluğa şikayət ünvanlanması təsadüf sayıla bilməz. Z.Əzəmət görüş zamanı arqumentlərini səsləndirmək istəsə də, R.Usubovun onu dinləmək istəmədiyini vurğuladı:** "Sadəcə olaraq, mənə bildirildi ki, çağırış xarakterli bu cür xəbərlər qanunun tələblərinə əsasən həbslə yekunlaşa bilər. Bu görüşdən sonra nəyisə nəzərə alacağammı? Burda nəzərə alınacaq bir şey görmürəm. Bu cür xəbərləri verməkdə davam edəcəyik. Söhbət dövlətçilikdən gedirsə, düşünmürəm ki, bu dövləti bizdən çox sevirlər. Biz də sevirik. Hesab edirik ki, bu aksiyaları yaradan biz deyilik, bunu yaradan situasiyadır. Devalvasiyada da nə biz, nə də media günahkardır. Bu cür situasiyada ölkədə az qala bütün rəsmi qurumların qeyri-peşəkar çalışdığı dönəmdə mediaya tələbkarlıq tələbinin qoyulması anlaşılan deyil. Çünki dövlət qurumları heç zaman media üçün əlçatan olmayıb. Bu halda da aksiya ilə bağlı rəqəm, faktoloji tərəflərdə müəyyən təhriflər ola bilər. 10 illik fəaliyyətimiz dönəmində son 2 ayda intensiv olaraq bizim hədəf göstərilməyimiz anlaşılan deyil. Anlamıram ki, bizdən nə istəyirlər?"

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Z.Əzəmətin təmsil olunduğu quruma dəvət edilməsi Mətbuat Şurası tərəfindən cari ilin yanvar ayında internet informasiya resurslarda aparılan monitorinqin nəticələri ilə bağlı olub. Müsahibimizə xatırlatdı ki, MŞ-nin rəhbərliyi monitorinqin nəticələrini hüquqi qiymət verilməsi üçün Respublika Prokurorluğuna göndərib:** "Araşdırmaların nəticələrinə müvafiq olaraq bir neçə informasiya agentliyinin rəhbərləri tərəfimizdən dəvət olunub. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduqlarına görə bəzilərinə rəsmi xəbərdarlıq edilib. Burada hər hansı qərəzdən söhbət gedə bilməz. Araşdırmaların nəticəsi barədə tərəfimizdən ictimaiyyətə məlumat veriləcək".

❑ **Sevinc TELMANQIZI**

**AŞ PA-da "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması" adlı qətnamə layihəsinin 70 səs əleyhinə, 66 səs lehinə olmaqla qəbul edilməməsində günahkarlar sırasında Türkiyədən olan deputatların da adı çəkilir. Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin üzvü Fazil Mustafa bildirib ki, Avropa prezidentləri, Minsk Qrupuna həmsədrlik edən Rusiya, ABŞ və Fransanın bütün strukturlarının təhdid və təzyiqləri çox ciddi rol oynadı və bu ölkələrdən olan xeyli deputatın səsvermədə iştirak etməməsinə səbəb oldu.**

# Keçmiş deputatdan Türkiyəni xəyanətkar adlandıranlara cavab

## Sabir Rüstəmxanlı: "Parlamentdə o qədər milli xəyanətkarlar var ki…"

Lakin Türkiyə deputatlarının səsvermədə iştirak etməyən 4 nəfəri bu addımı atmasaydı, vəziyyət Azərbaycanın xeyirinə ola bilərdi: "Bildiyiniz kimi, hansısa kiçik detallara görə heç vaxt Türkiyəni qınamamışam. Çünki ən ağır zamanlarda ölkəmizin yanında duracaq tək ölkə Türkiyə olacaq. Ona görə də bu yazacaqlarım qətiyyən Türkiyənin əleyhinə mövqe kimi anlaşılmasın. Sadəcə, qısa bir epizod olaraq türk məsuliyyətsizliyindən yazmaq istəyirəm. Uolterin məruzəsində 66 lehimizə, 70 əleyhimizə oldu. Türkiyə nümayəndə heyəti 18 nəfərdən ibarət idi. Bunlardan 2 nəfər PKK-nı dəstəkləyən partiyadan olduğuna görə ermənilərə simpatiya duymaları təbiidir. Məhz 16 nəfərin hamısı səs versəydi, qətnamə qəbul olunurdu. Cəmi 12 nəfər lehimizə səs verdi. AKP-dən 2, CHP-dən də 2 nəfər səsvermədə iştirak etmədi. Bu 4 səs nəticəyə ciddi təsir etdi. AKP-dən hətta nümayəndə heyətinin rəhbəri səsvermədə iştirak etmədi. Halbuki iki gün öncədən hər biri ilə fərdi qaydada danışmışdıq ki, bu, soyqırım qədər əhəmiyyətli məsələdir və Azərbaycanla yanaşı, Türkiyəyə də ciddi arqument verəcək".

**Deputatın sözlərinə görə, Türkiyə rəsmiləri bu məsuliyyətsizliyin izahını verəcəklər:** "Beynəlxalq arenada soyqırım məsələsində türkləri ermənilərə uduzduran məhz türk məsuliyyətsizliyidir. Çox üzücüdür, ancaq bunları bölüşmək türk milləti olaraq nöqsanlarımızı görmək baxımından faydalıdır".

Xarici İşlər Nazirliyi isə AŞ PA-da "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarına dair" qətnamənin qəbul edilməməsinə görə Azərbaycan deputat nümayəndə heyətinin rəhbəri Səməd Seyidovu ittiham edib. Daha konkret desək, XİN Səməd Seyidovu məsuliyyətsizliyə və səhvə yol verdiyini bəyan etməklə vurdu. Beləliklə, xarici işlər naziri vəzifəsinə iddialı olan Səməd Seyidov Elmar Məmmədyarovdan zərbə almış oldu.

Sosial şəbəkədə və bəzi media orqanlarında isə Türkiyədən olan 4 deputatın səsvermədə iştirak etməməsi xüsusi qabardılır, hətta bu hadisənin Türkiyədən Azərbaycana xəyanət kimi təqdim edənlər də var.

Türkiyəli deputatları günahkar və Türkiyəni xəyanətkar elan etmək doğrudurmu?



**Dünya Azərbaycanlıları Konqresinin rəhbəri, VHP sədri Sabir Rüstəmxanlı hesab edir ki, 4 deputatın səsvermədə hansısa səbəbdən iştirak etməməsini Azərbaycana xəyanət kimi təqdim etmək düzgün deyil. Bu cür təqdimat türk düşmənlərinə fürsət verir ki, Türkiyə ilə Azərbaycanın münasibətlərində soyuqluq yaratsınlar:** "Əvvəla, Türkiyə deputatlarının da içində erməni mənşəlilər, ermənilərə yaxın şəxslər var, Azərbaycana birmənalı münasibəti olmayanlar var. Çeşidli mövqelər var. Bunu bütün Türkiyənin ayağına yazmaq yanlışdır. Azərbaycan o cür situasiyalarda haqlı mövqeyinin dəstəklənməsi üçün Türkiyə deputatları ilə də, Avropa deputatları ilə də sıx işləməlidir. Hansısa deputatların real vəziyyətdən məlumatı olmaya bilər. Məhz bunun üçün də ciddi şəkildə işləmək lazımdır. İkincisi, Dağlıq Qarabağ münaqişəsinin başlanması, torpaqlarımızın Ermənistan tərəfindən işğalı 30 ilə yaxınlaşır, indi Ermənistanın işğalçı olub-olmadığının AŞ PA-da müzakirəyə çıxarılmasının nəyə hesablandığı maraqlıdır. Hər kəsə bəllidir ki, Ermənistan Azərbaycan torpaqlarının 25 faizini işğal edib. Bu, dünyanın gözünün qabağındadır. İndi işğal faktını müzakirəyə çıxarmaq Azərbaycanın 30 ilik mübarizəsini heçə endirmək deməkdir. Odur ki, bu məsələnin müzakirəyə çıxarılmasına imkan vermək lazım deyildi. Bəyan edilməli idi ki, Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən işğalı bir faktdır. İndi bunu səsverməyə çıxarmaq nə üçündür".

**S.Rüstəmxanlı onu da dedi ki, Azərbaycanın özünün parlamentində ümummilli məsələlərdə fərqli mövqelər sərgiləyənlər olur:** "Azərbaycan parlamentinin özündə o qədər milli xəyanətkarlar var ki, milli məsələlər müzakirə olunanda həmişə antimilli mövqedən çıxış ediblər, milli maraqlarımıza zidd mövqe nümayiş etdiriblər. Bu, dəfələrlə olub Milli Məclisin tarixi boyu. Ona görə də özümüzü qoyub başqalarını ittiham eləmək lazım deyil".

❑ **Etibar SEYİDAĞA**




# Hadı Rəcəbli pensiyaçı məmurları yola salmağa çağırdı

## Komitə sədri: "Gəlin, sahibkarın başını kəsən məmurun əlini qıraq"

**"Komitəmiz ilk dəfədir ki, parlamentin sessiyasının gündəliyinə qanun layihələri təklif etmir". Bunu parlamentin Əmək və sosial siyasət komitəsinin Milli Məclisin (MM) qarşıdan gələn 2016-cı il yaz sessiyası ilə bağlı yanvarın 28-də keçirilən iclasında sözügedən komitənin sədri Hadı Rəcəbli bildirib.**

Gün.az xəbər verir ki, onun dediyinə görə, indi ortada hazır və yaz sessiyasının müzakirəsinə çıxarılması gözlənilən iki qanun layihəsi var: "Onlardan biri "Əlillərin hüquqları haqqında", biri də "Turizm haqqında" qanun layihələridir". H.Rəcəbli qeyd edib ki, bundan başqa, Əmək Məcəlləsinə bir sıra dəyişikliklərin edilməsi də nəzərdə tutulur. Komitə sədrinin bildirdiyinə görə, həmin məcəlləyə dəyişikliklərlə bağlı dinləmələrin də keçirilməsi nəzərdə tutulur.

**O, eyni zamanda qeyd edib ki, parlamentdə dinləmələrin keçirilməsinə başlanılıb:** "Bundan başqa, dinləmələrin nazirliklərdə keçirilməsi üçün şəraitin yaradılması düzgün olar. Hətta bunun üçün bu yaxınlarda əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovla danışığımız olub. Nazir bu təklifimizi müsbət qarşıladı".



**Deputat bildirib ki, sahibkarlığa dəstək ən vacib məsələlərdən biridir.** "Bu gün biz sahibkarları sanki düşmən gözündə görürük. Onlara düşmən imici formalaşdırmışıq. Əmək Məcəlləsində də buna görə dəyişikliklərin edilməsini nəzərdə turuq. Sovet İttifaqından qalmış fikirlə sahibkara düşmən imici formalaşdırmışıq. Hətta deyilir ki, sahibkar quldur, oğru və istismarçıdır. Qanunvericilikdə sahibkarlığa hansı dəstəyin olması ilə bağlı bəzi müddəalarda düzəliş edilməlidir. Biz bunu etməliyik ki, sahibkarların əli-qolu açılsın. Bundan başqa, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı çoxlu dəstəkverici layihələri ortaya çıxarmalıyıq. Bu, Əmək Məcəlləsində də ola bilər".

**Deputat qeyd edib ki, ünvanlı sosial müdafiə ilə bağlı qanun layihəsi yeni modeldə hazırlanmalıdır:** "Çünki artıq bu gün bu növ yardımların edilməsi də elektron formadadır. Biz çalışacağıq ki, qanun qəbul olunan zaman maksimum şəffaflığı artıracaq prinsiplər gücləndirilsin. Çünki elə ailələr var ki, orada 2 əlil uşaq var. Yaxud da ki, ailədə hansısa valideyn əlildir. İş qabiliyyəti yoxdur. Ona görə də biz çalışmalıyıq ki, ünvanlı sosial yardımın ünvanını ədalətli təyin edək".

**H.Rəcəbli ona gələn məktublarda Çernobl və Əfqanıstan əlillərinin əsas istək və arzuları bunlar olduğunu söyləyib:** "Mənə məktubla müraciət edən əlillərin əksəriyyəti deyir ki, "nəyə görə biz Çernobl və Əfqanıstan əlillərini Qarabağ əlilləri səviyyəsində tutmurlar". Əslində elə düz deyirlər. Onlar da azərbaycanlıdır. Nə olsun ki, onlar Qarabağda əlil olmayıblar. Yaxud da ki, kantuziyalı, yaxud başqa səbəblərdən əlil olan vətəndaşlarımıza da maşınlar verilməlidir. Biz bunları da qanun layihəsinə salacağıq. Həmin kateqoriyadan olan əlillər də Qarabağ əlillərinin yararlandığı imtiyazlardan yararlanmalıdırlar.Biz həmçinn Əmək Məcəlləsinə də dəyişikliklərin edilməsini nəzərdə tuturuq". **H.Rəcəbli onu da vurğulayıb ki, Azərbaycanda ünvanlı sosial yardımın yeni modeli hazırlanır.** "Yeni modellə bağlı dinləmələrin keçirilməsi nəzərdə tutulur. O modelə parlamentdə bir də baxılacaq və müvafiq qərar qəbul ediləcək".

**Deputat qeyd edib ki, Azərbaycanda ünvanlı sosial yardım modeli seçilərkən təməl olaraq Polşa qanunvericiliyi götürülmüşdü:** "Burada da zaman-zaman qanunvericilikdə dəyişiklik etmişik. 10-a yaxın sənəd istənilirdisə, sənədlərin sayı azaldılıb, sənədlərin bir ildən bir baxılmasını iki ildən bir etdik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daim axtarışdadır və burada yeni-yeni islahatlar aparmaq istəyirlər".

"Pensiya yaşına çatıb, gününü keçirən məmura xüdahafiz deməliyik. Yalnız ehtiyac duyulan şəxsləri dəstəkləməliyik. Ola bilər ki, həmin şəxsə müşavir və ya digər status verilər". **Bu sözləri Hadı Rəcəbli modern.az saytının dövlət orqanlarında çalışan yaşlı məmurların ixtisara düşməsi ilə bağlı sualına cavab verərkən deyib. O qeyd edib ki, prezidentin qeyd etdiyi kimi, mümkün qədər ixtisara yer verməmək lazımdır:** "Sahibkar maya dəyərini aşağı salmaq üçün işçini azaldır və ya digər addımlar atır. Biz də sahibkarlara deyə bilərik ki, maya dəyərini aşağı salmamaq üçün öncə işçini ixtisara salmamaq barədə düşünsün. Onsuz da hər zaman sahibkarların üzərinə düşürlər. Prezident demişkən, gəlin məmurun əlindən vuraq, sahibkarın başını kəsən məmurun əlini qıraq. Sahibkarın vəsaitini əlindən alan məmuru qınayaq".

Xatırladaq ki, Milli Məclisin yaz sessiyasının ilk iclası fevralın 1-də keçiriləcək. Plenar iclasın gündəliyinə 16 məsələ daxil edilib. Milli Məclisin İntizam və Hesablayıcı komissiyalarının yenidən təşkil edilməsi, komitələrin yeni üzvlərinin təsdiqlənməsi, həmçinin parlamentin 2016-cı il yaz sessiyasının qanunvericilik işləri planının təsdiq olunması məsələlərinə baxılacaq. Bundan başqa, gündəliyə Azərbaycanın bir neçə ölkələrlə imzaladığı hökumətlərarası sazişlərin təsdiqi ilə bağlı sənədlər də daxil edilib.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 22 (6342) 29 yanvar 2016

## Bir-biri ilə yola getməyən iki qurum birləşdirilir

**Son vaxtlar təhsil naziri Mikayıl Cabbarovla Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə arasında yenidən başlamış "soyuq savaş"ın səbəbi ortaya çıxıb. Məlumatlara görə, yaxın günlərdə Təhsil Nazirliyi ilə TQDK eyni qurumda birləşdiriləcək, adıçəkilən qurumların bazasında Elm və Təhsil Nazirliyi yaradılacaq.**



# Mikayıl Cabbarov qələbə ərəfəsində-Məleykə Abbaszadə gedir...

### Məlumatlara görə, yaxın günlərdə Təhsil Nazirliyi ilə TQDK eyni qurumda birləşdiriləcək, adıçəkilən qurumların bazasında Elm və Təhsil Nazirliyi yaradılacaq; təhsil naziri bu layihənin həyata keçməsinə təkid edir; 2013-cü il prezident seçkilərindən sonra Məleykə Abbaszadənin komissiya sədri kimi təsdiqi niyə yubanmışdı?

İddia olunur ki, hakimiyyət daxilində bu layihənin əleyhinə olanlar da var. Təhsil Nazirliyi ilə TQDK-nın birləşməsinin əleyhinə olanlar hesab edir ki, bu birləşmə təhsil sahəsində korrupsiyanın miqyasını artıra bilər. Digər tərəfdən, bu qurumlar bir-birinə demək olar ki, nəzarət funksiyası yerinə yetirirdi. Yeni qurumlar arasındakı rəqabət onların bir-birilərinin fəaliyyətini diqqətlə izləməyi şərtləndirir. Bu qurumlar birləşdiriləndən sonra isə ortadakı rəqabət və bundan doğan nəzarət funksiyası təbii olaraq aradan qalxacaq ki, bu da təhsil sahəsinə ciddi mənfi təsir göstərə bilər. Lakin bütün bunlara rəğmən Təhsil Nazirliyi ilə TQDK-nın bir qurumda birləşdirilməsinin tərəfdarı olanlar da var. Onların başında isə təhsil naziri Mikayıl Cabbarov dayanır. Xüsusilə o, bu layihənin həyata keçməsinə təkid edir.

Hökumət 2016-cı il büdcəsində neftin qiymətinin 25 dollardan hesablanması üzərində işləyir və gözlənilir ki, iqtidar digər sahələrdə olduğu kimi, təhsil sahəsində də vahid qurum yaradılmasına qərar verəcək.

Yeni quruma kimin rəhbərlik edə biləcəyi barədə hələ ki yalnız ehtimallar var. Amma iki qurumun rəhbərindən biri üzərində seçim edilərsə, təbii ki, M.Cabbarovun şansları daha yüksək qiymətləndirilir. Maraqlıdır ki, son günlər məktəblərdə müəllim-şagird, müəllim-valideyn davaları haqda informasiyalar artıb, hakimiyyətə yaxın televiziyalarda Təhsil Nazirliyinə yönəlik qınaqların artdığı müşahidə edilir. Buna paralel olaraq TQDK sədrinin kolleclərə və ali məktəblərin bəzi ixtisaslarına tələbə qəbulunun buraxılış imtahanlarının nəticələri əsasında aparılması təklifi iqtidara yaxın KİV-lərdə ciddi tənqid olunmaqdadır. Yada salaq ki, 2013-cü il prezident seçkilərindən sonra hökumətin tərkibini müəyyən edərkən M. Abbaszadənin yenidən komissiya sədri kimi təsdiqi bir qədər yubandı. Həmin vaxt bəzi mənbələr bunu TQDK sədrinin dəyişdiriləcəyi ilə əlaqələndirirdilər. Lakin bir müddət sonra komissiya sədri vəzifəsini qorumağı bacardı.

Keçmiş təhsil naziri Misir Mərdanovun vaxtında nazirliklə TQDK sədri arasında tez-tez qarşılıqlı ittihamlar səslənirdi. Amma iki ildən artıqdır ki, Təhsil Nazirliyinin rəhbərliyi dəyişsə də, tərəflər arasında "möhkəm sülh" yoxdur, zaman-zaman müəyyən məsələlərdə qarşılıqlı ittihamlar eşidilməkdədir. Məsələn, komissiya sədri ötən il keçirilmiş buraxılış imtahanlarından aşağı qiymət alanlarla bağlı danışaraq təhsil nazirini çətin vəziyyətdə qoymuşdu. Mikayıl Cabbarov isə "Azərbaycan" qəzetinə müsahibəsində "bu il buraxılış imtahanlarında 2 qiyməti almış 128 nəfər məzun qəbul imtahanlarında uğurlu nəticələr göstərərək ali məktəblərə qəbul olunub" deyərək, TQDK-da rüşvət mexanizminin hələ də işlədiyinə açıq işarə vurmuşdu.

Təhsil Nazirliyi və TQDK arasında münasibətlərin yoluna qoyulmamasının kökündə isə iddialara görə, hakimiyyətdaxili ziddiyyətlər dayanır. Məlumdur ki, yeni təhsil naziri də Misir Mərdanov kimi hakimiyyətdəki ikinci soyada yaxın kadrdır. Yəni Misir Mərdanovdan sonra da təhsil sahəsini nəzarətlərində saxlayıblar. TQDK sədri isə daha çox Prezident Administrasiyasına yaxın kadr sayılır.

"Yeni Müsavat"ın hakimiyyətə yaxın mənbələrinin xəbərinə görə, iqtidar bu birləşmə məsələsinə razılıq vermək ərəfəsindədir. Çünki prezident İlham Əliyev də yaxın aylarda hökumətdə çevik idarəetmə strukturunun yaradılacağını, bir-birinə yaxın səlahiyyətli komitələrin birləşdiriləcəyini deyib. TQDK və Təhsil Nazirliyi təhsil sistemində bir-birinə nə qədər rəqabətdə olsa da, "bir alma" hesab olunur. Mənbə deyib ki, islahat dalğasının qurbanı isə çox böyük ehtimalla TQDK sədri olacaq.

Qeyd edək ki, bugünlərdə 5 ildir TQDK-nın mətbuat xidmətinin rəhbəri işləyən Elnur Nağızadə gözlənilmədən öz ərizəsi ilə vəzifəsindən gedib. Ehtimal ki, bu, qurumun yaxın vaxtlarda ləğvi ilə bağlı məlumatlarla əlaqədardır.

❑ **"Yeni Müsavat"**

# Qəbul imtahanı ləğv edilə bilər-ekspertlər danışır

**Azərbaycanda gələcəkdə qəbul imtahanı yalnız yüksək müsabiqə vəziyyəti yaranan ixtisaslara qəbul olmaq üçün keçirilə bilər. Bunu mətbuata açıqlamasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə kolleclərə və ali məktəblərin bəzi ixtisaslarına tələbə qəbulunun vahid imtahan modeli - buraxılış imtahanlarının nəticələri əsasında aparılmasının gələcəkdə qəbul imtahanlarının, ümumiyyətlə, ləğv olunmasına, qəbulun buraxılış imtahanlarının nəticələri əsasında aparılmasına səbəb olub-olmayacağına aydınlıq gətirərkən deyib: "Ola bilsin ki, dövlət sifarişli yerlərə və müsabiqə vəziyyəti çox yüksək olan hansısa xüsusi ixtisaslara qəbul olmaq üçün qəbul imtahanı keçiriləcək. Amma yüksək müsabiqə vəziyyəti yaranmayan ixtisaslara qəbul buraxılış imtahanının nəticələri əsasında aparıla bilər".**



**Etibar Əliyev:** "Bunun ideya kimi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən irəli sürülməsi müsbətdir"



**Nadir İsrafilov:** "3 imtahanla bu prosesin həyata keçirilməsi mümkünsüzdür"

M.Abbaszadə bildirib ki, həmin ixtisaslara qəbula görə buraxılış imtahanının nəticələrinin nəzərə alınması üçün buraxılış imtahanlarının heç olmasa 5 fənn üzrə keçirilməsi lazımdır: "Ola bilsin ki, 1 ildən sonra buraxılış imtahan fənlərinin sayı 4 olsun. Onda müəyyən ixtisaslara 4 fənnin nəticələri əsasında qəbul aparmaq mümkün olar. Amma bunların da hansı ixtisaslar ola biləcəyini hələ demək mümkün deyil. Bu, bəlkə də daha çox tələbə cəlb etmək istədiyimiz kənd təsərrüfatı ixtisasları olacaq"

**TQDK sədri deyib ki, ali məktəblərə buraxılış imtahanının nəticələri əsasında qəbulun aparılmasına ali məktəblərin özlərinin də razılığı olmalıdır:** "Belə olanda biz buraxılış imtahanlarının nəticələrini nəzərə ala bilərik. Çünki ali məktəblər özləri hansı kontingenti görmək istədiklərini bildirirlər. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına uyğun olaraq, qəbul qaydalarının təkmilləşdirilməsi, ali məktəblərdə kontingentin formalaşdırılması ilə bağlı maddələrə aid işlər tədricən aparılacaq".

**Maraqlıdır, bu cür bir qaydanın tətbiqi haqda təhsil ekspertləri nə düşünür. Bu cür qayda şagirdlərin ali məktəbə marağını artıracaqmı?**

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev bu modelin artıq bir çox ölkələrdə həyata keçirildiyini və yaxşı nəticələr verdiyini dedi:** "Bu cür model Qərbdə uzun illərdir tətbiq olunur. Postsovet məkanına daxil olan ölkələrdə, o cümlədən Qazaxıstanda da bu model uğurla tətbiq olunur, yaxşı da nəticələr verir. Burada ən mühüm məqamlardan biri orta məktəblərdə biliyin dəqiq qiymətləndirilməsini həyata keçirməkdir. Yəni nə qədər çox kənara çıxma olsa, proses bir o qədər neqativ tərəfə cərəyan etməli olacaq. Əslində buraxılış imtahanlarının tətbiqi başlayan andan bu məsələlər üzərində düşünmək lazım idi".

**Ekspert bildirdi ki, məsələ ilə bağlı bir neçə ölkənin təcrübəsini nəzərdən keçirmək lazımdır:** "Biz həddindən artıq gecikmişik. Hazırkı vəziyyət şagirdlərin fiziki, zehni cəhətdən yorğunluğuna gətirib çıxarır və bu səbəbdən vahid imtahan üzərində düşünməyə imkan verir. Ona görə də bunun üzərində çox geniş iş aparılmalıdır. İlk növbədə məktəblərdə təmayülləşmə prosesini sürətləndirmək lazımdır. İkincisi isə 12 illik təhsilə keçid sürətlənməlidir. Nə qədər 12 illik təhsilə keçid həyata keçirilməyib, bu, problemli məsələ kimi qalacaq. Bu proses tətbiq olunan ölkələrin böyük əksəriyyətində təhsil 12 illikdir. Hər halda, bunun ideya kimi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən irəli sürülməsi müsbətdir. Hiss olunur ki, Məleykə xanım biliyin qiymətləndirilməsi və ya yekun attestasiya nəticəsində abituriyentlərin daha səmərəli və daha rasional yollarla ali məktəbə daxil olmasının tərəfdarıdır".

**Digər təhsil eksperti Nadir İsrafilov isə bu məsələnin həyata keçirilməsi üçün imtahanların sayının artırılmasının vacibliyini vurğuladı:** "Bu məsələ neçə illərdir gündəmdə idi. Bu vaxta kimi bunun həyata keçirilməsi ona görə mümkün olmayıb ki, buraxılış imtahanlarını Təhsil Nazirliyi götürürdü, ali məktəblərə qəbulu isə TQDK. İndi artıq neçə illərdir ki, hər iki imtahanı TQDK keçirir. Yəni hazırda bunun reallaşması üçün tam zəmin var. İkincisi də bu, strategiyada da nəzərdə tutulub. Bilirsiniz ki, bizdə sovet dönəmində buraxılış imtahanı 4-5 imtahandan ibarət olub. Sonradan biz testə keçib bunu 8 imtahan etdik. Ondan sonra isə 8 imtahanı ləğv edərək 2 imtahan etdik. Sonradan yenə də fikrimizi dəyişib bunu 3 imtahan etdik. Amma 3 imtahanla nəticə əldə etmək olmaz. Ona görə də mütləq bu imtahanların sayını artırmaq lazımdır. Heç olmasa 6 imtahana qədər artırılmalıdır. Yəni 3 imtahanla bu prosesin həyata keçirilməsi mümkünsüzdür və obyektiv qiymət vermək mümkün olmayacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 21 (6342) 29 yanvar 2016



# Mədəniyyət hadisəsi

Zamin HACI
zaminhaci@gmail.com

**Hansısa generalın qohumu yanacaqdoldurma stansiyasına basqın eləyib oranın qoruqçusunu döymüşdü, dünən həmin gəncə 30 sutka inzibati həbs veriblər. Ar olsun o hakimə. Nə üçün bu cür perspektivli gənci zindana salırsan? Bəyəm o da hansısa kasıbın qohumudur?**

Bu baxımdan, gənc çox haqlı olaraq qərardan apelyasiya şikayəti veribdir. Ümid edirəm bu cızmaqara qəzetdə çıxana qədər hakimin ağlı başına gələr, uşağın qərarını cırıb atar, ədalət zəfər çalar. Bizim gələcəyimiz belə gənclərdən asılıdır. Sən bu gün bazarkomun oğlunu, generalın qohumunu 30 sutka dama basacaqsan, sabah heç kim vətəni qorumağa getməyəcək. Özü də bu saat hamımız əsəbiyik, devalvasiya bir yandan, Qarabağ problemi o yandan - gənclərdə dözüm qalıb? Neftin qiyməti düşəndən bəri hətta mən özüm də yanacaqdoldurma məntəqəsinə təpik qoymaq istəyirəm, baxmayaraq heç maşınım yoxdur.

Sözgəlişi, millətimizin bir hissəsi də keçmiş MTN şefi Eldar müəllimin niyə tutulmadığından narazıdır. Deyirlər, nə təhər olur, nazirlikdə o qədər cinayətkar saxlayan adam, o boyda generalı quldur çıxan şəxs özü bəyəm mələkdir?

Burda da açıq-aydın görünür ki, belə düşünənlər uca millətimizə yaddır. Problemin kökləri Eldar müəllimin haralı olmasının müəyyənləşdirilməsindəki çətinliklərdən qaynaqlanır. Yadınıza salın: o nazir vəzifəsindən çıxarılan vaxt az qalmışdı tutulsun, hətta müstəntiqin əli qapının zənginə uzanmışdı. Bu vaxt xəbər gəldi ki, Eldar müəllim şərurlu deyil, qazaxlıdır. Dərhal istintaq qrupuna "geri çəkilin" əmri verildi.

Araşdırma başlandı. Nəticələr isə məyusedicidir, Eldar müəllimin nəinki naxçıvanlı və şərurlu, nəinki qazaxlı, hətta kürdəmirli olması, ora isə ulu babasının Qarabağdan qaçqın kimi gəlməsi kimi təkzibedilməz dəlillər ortaya çıxdı! Uzun sözün qısası, bunun haralı olması dövlət səviyyəsində təsdiq ediləndən sonra tutacaqlar. İndi tutsan nə biləsən kimi tutursan? Peşmançılıq olar.

Məhz bu baxımdan mən ANS-lə MTRŞ arasındakı davanın filoloji müstəvidən qaynaqlanmasını təbii sayıram. Xatırladım ki, ANS-in əməkdaşı Mirşahin müəllim öz verilişində qurumun adını "mıtırışı" kimi səsləndirir. APA agentliyi bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi Dilçilik şöbəsinin müdiri, Dövlət Dil Komissiyasının üzvü İsmayıl Məmmədovdan münasibət öyrənmişdi. *(O uzunluqda vəzifəsi olandan sonra İsmayıl müəllimin dili uzun olmalıdır, gərək sözünə qulaq asaq).* **Sitat:** "Milli Televiziya və Radio Şurasının (MTRŞ) "mıtırışı" kimi səsləndirilməsini məqbul hesab etmirik. Dövlət orqanının adı "metereşe" kimi səsləndirilsə daha yaxşı olar". Ay Allah atana rəhmət eləsin, bunu de da bə! Bütün problemlərimiz elə bundan qaynaqlanır.

Bu arada, Bakı Mədəniyyət İdarəsinin müdirini dəyişiblər. Aydın məsələdir. Daşlıq yerə çatanda neftli sahədə sürdüyün atı minə bilməzsən. Hər örüşün öz nəqliyyatı olmalıdır. Bax, "Gülüstan" sarayının dalı pullu vaxtımızda niyə çatlamırdı? Orda nə qonaqlıqlar olurdu, kürülər sel kimi axırdı, neft yaxmacı dilim-dilim, şampanski vedrə ilə, bəh-bəh... İndi isə əlimizi açıb Dünya Bankı kimi qotur qurumdan pul dilənirik: "Sən o yanındakı qəşəng BVF-nin canı, 4 milyard kredit ver". O da özünü yerli rəhmətlik banklarımız kimi aparır, deyir, iş yerindən arayış gətir, kredit verim. İş yeri olsaydı səndən krediti niyə istəyirdik? Milyonu açıldı, iki milyonu bağlandı. İstəyirdik qabağa düşək, vurduq dala getdik.

Eyni zamanda Bakıda mədəniyyət idarəsinin olması da bir şok xəbərdir. Mən elə bilirdim Bakı çox mədəniyyətsiz, tərbiyəsiz yerdir. O cür general qohumuna 30 sutka arest verən şəhərdə mədəniyyət olarmı?

# TANAP BTC-ni əvəz edə bilərmi?

## Layihənin tikintisi üzrə proseslər sürətləndirilib

**Dünya bazarında neftin ucuzlaşması və Azərbaycan üçün neft dövrünün tədricən başa çatması, digər bir enerji vahidi olan qazın xarici bazarlara çıxarılması prosesinin sürətləndirilməsini şərtləndirib. Məhz bu səbəbdən hökumət TANAP layihəsinin vaxtında tikilib istifadəyə verilməsində maraqlıdır.**

Təsadüfi deyil ki, TANAP layihəsinin tikintisi üzrə proseslər sürətləndirilməsi üçün yanvarın 27-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyinin nümayəndələri Türkiyədə səfərdə olub. Səfər çərçivəsində R.Abdullayev Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrakla görüşüb. Görüşdə TANAP-ın inşası işlərinin, eyni zamanda, Petkim yarımadasında həyata keçirilən layihələrin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılacağına əminlik ifadə olunub.

Qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib, bu istiqamətdə ətraflı fikir mübadiləsi aparılıb.

SOCAR-ın prezidenti Türkiyəyə səfəri çərçivəsində "Transanadolu" qaz boru kəməri-TANAP konsorsiumunun İdarə Heyətinin iclasında da iştirak edib. İclasda 2016-cı il üçün layihə çərçivəsində görüləcək işlərə dair fikir mübadiləsi aparılıb, zəruri sənədlər təsdiqlənib. Eləcə də layihənin operatoru olaraq SOCAR-ın fəaliyyəti yüksək qiymətləndirilib.

Görünən odur ki, TANAP-ın gündəmdə olması başqa bir iri layihə olan Bakı - Tiflis - Ceyhan layihəsini gündəmdən salıb. Nə ölkə başçısının, nə də hökumət rəsmilərinin son çıxışlarında bu boru kəmərinin adı çəkilmir. Bütün bunlar diqqətlərin TANAP üzərində cəmləşməsindən xəbər verir.

**Enerji məsələləri üzrə ekspert, Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, TANAP layihəsinin bu gün gündəmdə olmasının əsas səbəbi layihənin tikinti mərhələsində olması ilə bağlıdır:** "Xatırlayırsınızsa, Bakı-Tiflis-Ceyhan layihəsi bu mərhələdə olan zaman vaxtaşırı müzakirələr gedirdi. TANAP artıq son tikinti mərhələsinə qədəm qoyur. Yanvarın 25-də TANAP layihəsinin son hissəsini tikəcək şirkət elan edildi. Türkiyə-Hindistan birgə müəssisəsi layihənin sonuncu- Əskişəhərdən Upsalayacan, Türkiyə-Yunanıstan sərhədinə qədər olan hissəsini tikəcəklər. Bununla da faktiki olaraq TANAP-ın tikinti məsələləri bitmiş oldu. Ötən il kəmərin 200 kilometrlik hissəsi qaynaq edilmişdi, bu il isə 1000 kilometr olacaq. Ümumilikdə, 2017-ci ilin sonunacan 1350 kilometr hissə tam qaynaq edilib basdırılmalı, test olunmalıdır ki, 2018-ci ildə buradan qaz verilə bilsin. Faktiki olaraq, boru kəmərinin tikinti işləri 2017-ci ilin sonuna bitəcək".

**Bakı-Tiflis-Ceyhan layihəsinin hazırkı fəaliyyətinə gəlincə isə ekspert bildirdi ki, bu kəmər hələ də Azərbaycanın ən faydalı və ən çox gəlir gətirən irimiqyaslı layihəsi olaraq qalır:** "Bakı - Tbilisi - Ceyhan hazırda işlək bir boru kəməridir. 5 aydan sonra bu kəmərin istifadəyə verilməsinin 10 ili tamam olacaq. Ötən 10 il ərzində bu layihə tikildiyi dövrdə verilən proqnozlardan fərqli olaraq Azərbaycan iqtisadiyyatına çox töhfə verdi.

O zaman bildirirdilər ki, iqtisadi baxımdan sərfəli deyil. Dünyanın ən böyük neft şirkəti olan EXXSON (Ekson) şirkəti tikinti ərəfəsini keçdikdən sonra bu layihəyə yatırım etməkdən boyun qaçırdı, neft daşımalarını dəmir yolu vasitəsilə həyata keçirməyə üstünlük verdiyini bildirdi. Lakin sonradan bu layihəyə qoşulmaq üçün müraciət etdikdə qəbul olunmadı. Lakin bu 10 il göstərdi ki, Bakı-Tiflis-Ceyhan çox uğurlu bir kommersiya layihəsi oldu. Layihəyə investisiya qoyan şirkətlər götürdükləri kreditləri tam qaytara bildilər. Bu boru kəmərinin buraxıcılıq gücü ildə 50 milyon ton idi. 2010 -cu ilin martından sonra 60 milyonacan artırılmışdı. Lakin heç zaman layihədə nəzərdə tutulan həcmə çatmadı. Bununla belə, o boru kəməri iştirakçılar üçün çox yaxşı dividentlər gətirdi".

**İlham Şabanın sözlərinə görə, Dövlət Neft Fondunun indiyədək qazanc götürdüyü ən yaxşı layihə də məhz Bakı-Tiflis-Ceyhan olub:** "O dövrdə xarici maliyyə qurumları bunun əleyhinə çıxırdı ki, neft pulu neft layihəsinə yatırıla bilməz. Bu layihənin tikintisinə 289 milyon yatırım edildi və bu günə qədər 500 milyon dollardan çox mənfəət götürülüb. Bilirsiniz ki, 2011 -ci ildən sonra dövlət gəlirləri Dövlət Neft Fonduna deyil, ARDNŞ-ə gedir. Hər il ARDNŞ bu layihədən 100 milyon vəsait qazanır. Bu, Azərbaycan üçün önəmli layihədir. Hazırda Bakı-Tiflis-Ceyhan kəməri ilə Azərbaycanın özünün 31-32 milyon ton nefti daşınır. Bundan əlavə də, təxminən 40 milyon tona yaxın Qazaxıstan və Türkmənistan nefti daşınır. Qarşıdakı dövrlərdə Azərbaycan nefti azalsa da, Qazaxıstan nefti hesabına daşınan neftin həcmi artacaq. Bakı-Tiflis-Ceyhan kəmərində yaxın 20 ildə daşınan illik neftin həcmi 35 milyon tona bərabər olacaq. Türkmənistanda da neft hasilatının artacağını nəzərə alsaq, boru kəmərinin əhəmiyyəti azalmayacaq".




❑ Nərgiz LİFTİYEVA

# Rusiyanın "əmlak kralları" siyahısında Azərbaycan doğumlular var

**"Forbes" jurnalının Rusiya versiyası ölkənin ən çox daşınmaz əmlaka sahib olan biznesmenlərinin illik icarə haqlarından əldə etdiyi gəlirləri hesablayıb. Modern.az saytı jurnala istinadən xəbər verir ki, ölkədə daşınmaz əmlak icarəsindən ən çox gəlir əldə edən şəxslər əslən Azərbaycandan olan yəhudi biznesmenlər Qod Nisanov və Zarah İliyevdir.**



Onlar 2015-ci ildə təkcə icarədən 1 milyard 115 milyon dollar qazanıblar. Onlara məxsus "Tevropeyskiy" ticarət mərkəzi (109 min kvadrat metr), "Radisson Royal Ukraina" (oteldə 155 otaq var), "Sadovod" tivarət mərkəzi (145 min kvadart metr) və "Fud siti" kooperativi (610 min kvadrat metr) Qod Nisanov və Zarah İliyevə gəlir gətirib.

Rusiyanın 30 əmlak kralı arasında yer alan başqa bir azərbaycanlı isə Araz Ağalarovdur. "Crocus Group"un rəhbəri 2015-ci ildə özünə məxsus ticarət obyektlərinin icarəsindən 365 milyon dollar qazanıb. Həmin daşınmaz əmlaka Krokus Ekspo (680 min kvadrat metr) və Moskvanın Kaşirski prospektində yerləşən "Vegas" ticarət mərkəzi (145 min kvadrat metr) daxildir. Bundan başqa, Ağalarovun biznes imperiyasının 12 min kvadrat metrlik anbar sahəsi də var.

"Crocus Group" 2018-ci il Dünya Çempionatı çərçivəsində Rostov və Kalininqrad şəhərlərində tikilən stadionların baş podratçısı olacaq. 2015-ci il 1 dekabr tarixinə Araz Ağalarovun şirkətinin ümumi borcu 1,4 milyard dollardır.

**Nüfuzlu beynəlxalq təşkilatlarından olan "Freedom House", "Human Rights Watch" və "Transparency İnternational" 2015-ci illə bağlı hesabatlarını açıqlayıblar. Hər üç təşkilatın hesabatı Azərbaycan üçün mənfi göstəricilərlə yadda qalıb.**
**"Freedom House" təməl azadlıqları ilə bağlı 195 ölkə arasında hazırladığı hesabatda Azərbaycanı söz-ifadə azadlığının ən çox pozulduğu ölkələr siyahısına salaraq, qeyri-azad ölkə elan edib. Maraqlıdır ki, "Freedom House" Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində də "siyasi və vətəndaş hüquqlarına" qiymət verib. Sənədə görə, Ermənistan kimi "Dağlıq Qarabağ da qismən azad ərazidir".**

# Azərbaycana qarşı üç hesabat

## Üç nüfuzlu təşkilatın ölkəmizi hədəfə almasının səbəbi; tənqidi hesabatlar yumşalmaqda olan Azərbaycan-Qərb münasibətlərinə zərbə vura bilərmi?



**Iqbal Ağazadə:** "Korrupsiya varsa, hesabatda adın gedirsə, bu, artıq çox ciddi məsələdir"



**Fəzail Ağamalı:** "Erməni lobbisinin bu təşkilatlara təsiri çox güclüdür"



**Mirvari Qəhrəmanlı:** "Azərbaycan ötən ildən də biabırçı vəziyyətdədir"

"Human Rights Watch" təşkilatının da hesabatı ölkəmiz baxımından kifayət qədər sərtdir. Qurum ötən ildə Azərbaycanda vətəndaş cəmiyyətinə və KİV-lərə qarşı repressiyaların artdığını bildirir. Eyni zamanda hesabatda göstərilir ki, məhkəmələr aparıcı hüquq müdafiəçilərini, siyasi fəalları və jurnalistləri siyasi xarakterli, ədalətsiz məhkəmə işləri ilə uzun müddətə azadlıqdan məhrum ediblər. Onların bir qisminin ya ölkəni tərk etdiyi, ya da ölkədən çıxışlarına qadağa qoyulduğu qeyd olunur. Hazırda bu prosesin davam etdiyi hesabatda göstərilir.

**"Azərbaycanda hökumətin repressiyaları ölkənin müstəqillik tarixi ərzində misli görünməmiş həddə olub"**, - deyə "Human Rights Watch"un Cənubi Qafqaz üzrə direktoru Georgi Qogiya bildirib.

"Transparency İnternational" təşkilatı isə korrupsiya ilə bağlı illik hesabatını açıqlayıb. 168 ölkənin adının daxil edildiyi hesabatda Azərbaycanın adı xüsusilə vurğulanır. Ölkəmiz sənədin Avropa və Mərkəzi Asiya bölümündə "yaxşı" və "pis" hissələrində "ən pis"ə düşüb.

Qeyd edək ki, Azərbaycan 2014-cü ilin indeksində 126-cı yeri tutmuşdusa, 2015-in nəticələrinə görə 119-cu pillədə qərarlaşıb. Lakin nəzərə almalıyıq ki, ötən ilin indeksinə 175 ölkə daxil edilmişdisə, builki reytinq cədvəlində 168 ölkə var.

Göründüyü kimi, hesabatların hər üçü ürəkaçan deyil. Doğrudur, bu sənədlər təkcə Azərbaycanla bağlı hazırlanmayıb. Dünya ölkələrindən ibarətdir. Amma yuxarıda qeyd olunan məsələlərdə ölkəmizin adının siyahılar üzrə mənfi yerlərdə hallanması bir çox mətləblərdən xəbər verir. Hesabatlarda diqqətçəkən nüanslardan biri də düşmən ölkə olan Ermənistanın Azərbaycandan ön sıralarda olmasıdır.

Bəzi ekspertlər hesab edirlər ki, bu hesabatlar son günlərdə Azərbaycanla Qərb arasındakı münasibətlərin yumşalmasına zərbə vuracaq. Xüsusilə fevralın 15-də Azərbaycanla bağlı sanksiyaların müzakirəsinin baş tutacağına bu hesabatların işarə verdiyi deyilir. Hakimiyyətin bundan sonra daha çətin sınaqlar qarşısında qalacağını indidən proqnozlaşdırmaq elə də çətin deyil.

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Azərbaycanla bağlı bu cür hesabatlar ilk dəfə deyil:** "Azərbaycanla Qərb arasında münasibətlərin pisləşməsi barədə indidən dəqiq və ciddi mövqe ifadə etmək çətindir. Çünki Qərbin tələblərinin heç biri yerinə yetirilməyib. Bu tələblər yerinə yetirilməyəcəyi təqdirdə münasibətlərin pisləşəcəyi barədə fikir bildirmək doğru deyil. Korrupsiya və azad olmayan ölkələr sırasına Azərbaycanın adının salınması və yüksək reytinqdə göstərilməsi birinci dəfə deyil. Dəfələrlə belə hallar olub və mövqeyimizi daim bildirmişik. Bununla bağlı hökumət təcili tədbirlər görməlidir. Təəssüflər olsun ki, hökumət hələ də belə tədbirlər görmür. Müqayisə oluna bilər ki, biz 119-cu yerdə yox, 100-cü yerdəyik, yaxud 90-cı yerdə deyil, 60-cı yerdəyik. Bunlar mahiyyəti dəyişmir. Hansı sırada olmağın önəmi yoxdur. Korrupsiya varsa, hesabatda adın gedirsə, bu artıq çox ciddi məsələdir. Hökumət ciddi tədbirlər görməyə məcburdur. Belə neqativ halların aradan qaldırılması üçün sistemləşdirilmiş proqramlar ortaya qoyulmalıdır".

**İqtidaryönlü deputat Fəzail Ağamalı hesab edir ki, Ermənistanın adının siyahıda ölkəmizdən öndə verilməsi hesabat açıqlayan təşkilatların ermənipərəst siyasətlərinin nəticəsidir:** "Bu təşkilatların yaydığı hesabatlarda ölkəmizə qarşı qərəzli münasibətin hər zaman bul olunmasını istəmirlər. Ölkəmizə qarşı bu cür qara piar kampaniyalarının indiyədək heç bir təsiri olmayıb. Ölkəmizin tutduğu yol düzgündür. Bu yol dünya dəyərlərinin Azərbaycana bərqərar olunması yoludur. Demokratiyanın inkişafı, söz azadlığının qorunub saxlanılması əsas məqsədlərdən biridir. Ölkəmiz qarşısına qoyduğu hədəflərə doğru sürətlə gedir və dünya miqyasında nüfuzunu artırmaqdadır. Bu cür bəyanatlar düşünmürəm ki, Azərbaycanın xarici nüfuzuna zərbə vursun, digər dövlətlərlə münasibətlərini korlasın. Qərblə ikitərəfli münasibətlərə malikik. Bu münasibətlər biz tərəfdən qətiyyətlə həyata keçirilir. Ən etibarlı ölkə statusunu qoruyub saxlayırıq. Nüfuzumuz dünyadakı bəzi qüvvələr tərəfindən qısqanclıqla qarşılanır. Onlar Azərbaycanın inkişafını istəməyən qüvvələrdir. Ən müxtəlif yollarla ölkəmizdə vəziyyətin gərginləşməsini istəyirlər. Amma bu gün xalqla ölkə başçısının sıx münasibəti var. Hətta dünyadakı iqtisadi böhranın ölkəmizə təsiri də şahidi olmuşuq. Həmin təşkilatların anti-Azərbaycan qüvvələri içərisində yer aldıqlarına şübhə etmirəm. Erməni lobbisinin bu təşkilatlara təsirləri çox güclüdür. Qərblə Azərbaycanın münasibətləri pisləşən kimi, bu təşkilatlar belə bəyanatları gündəmə gətirirlər. Çalışırlar ki, ölkəmizi Avropa məkanında gözdən salsınlar. Azərbaycan həqiqətlərinin dünya tərəfindən qəbu münasibətlərə zərbə vurmadı. Hazırda sabitlikdir. Biz işimizi belə bəyanatların üzərində qurmuruq. Ulu öndərimiz tərəfindən qurulmuş dövlət İlham Əliyev tərəfindən uğurla idarə olunur. Bu hesabatlar daxili və xarici siyasətimizə heç bir təsir etməyəcək. Təsir etmək gücündə də deyil".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Azərbaycanın ötən ildən də biabırçı vəziyyətdə olduğunu qeyd etdi:** "Hesabatların düzgün olmadığını kimsə deyə bilməz. Çünki ölkəmizdə gedən proseslər böyük korrupsiyanın olduğunu sübut etdi. Hesabatda söz azadlığının ölkəmizdə pozulması faktı da doğrudur. Təkcə son iki ildə Azərbaycanda aparılan həbslərə, QHT-lərə qarşı olan hücumlara diqqət yetirsək, bunun açıq şəkildə şahidi olarıq. Azad sözə ciddi təzyiqlər var. Bu hesabatlarda göstərilən bəzi faktları hökumətin özü də təsdiq edir. Demək olmaz ki, göstərilən faktların hamısı qərəzlidir. Hesabatlarda əks olunanlar cəmiyyətimiz tərəfindən də öz təsdiqini tapıb. Əfv öncəsi belə bəyanatların verilməsini, hesabatların hazırlanmasını heç vaxt doğru hesab etməmişəm. Amma son hesabatlar doğrudur. Korrupsiyaya qarşı hökumətin müəyyən tədbirlər görməsi doğrudur. Hətta bəzi korrupsiya faktlarını hakimiyyətin özü televiziyaya çıxarır. Prezident çıxışında da bu məsələyə toxundu".

❑ **Cavanşir ABBASLI**

# Samovarı pulla qaynadanlar və borca görə intihar edənlər



**Xalid KAZIMLI**

**Bu necə qalmaqal idi, bazar günü başladı, birinci gün axşam bitdi.**

Adicə alt paltarı görünən və ya görünməyən müğənni xanımın söhbəti azı bir həftə davam edir, 20 milyonluq (minimum) korrupsiya qalmaqalı isə təxminən bir sutka çəkdi.

Həftənin ikinci günü bu barədə yazan sayt və qəzetlərin sayı iki cüt bir tək idi. İndinin özündə də az-az adam sosial şəbəkədə o faktı xatırlayır, xatırladır. Söhbət bitdi, bitirildi.

Bax, korrupsioner mafiyanın gücü budur, görəndə ki, bu kələfi çözələsən, ortada çözülməmiş dürgəh, yumaq qalmayacaq, tez-tələsik medianın önünə "stop!" işarəsi qoydular.

Amma deputatın ritorik bir ifadəsi *("soğan əkin, işləyin, başınızı dolandırın")* həftələrdir gündəmdədir.

Əslində isə tərsinə olmalıdır, bir deputatın nə deməsi (deməməsi), bir müğənninin nə geyməsi (və ya geyməməsi), bir yazarın vəfat etmiş başqa yazar haqqında nə yazması bizim beynimizi bu dərəcədə məşğul etməməlidir.

Çünki o söhbətlərin heç biri ölkəmizin gələcəyinə, millətin istiqbalına, xalqın güzəranına korrupsiya qalmaqalları qədər təsir göstərmir və göstərə bilməz.

Ortada dövlət büdcəsindən, gələcək nəsillərin cibindən qamarlanmış milyonların söhbəti gedir. Həm də bu, yalnız bir adamda tutulmuş milyonlardır. Ölkədə isə dövlət büdcəsinə əli yetən minlərlə məmur var, demək, milyardların oğurlanmasından danışmaq lazımdır.

Heç kəs deməsin ki, ümumi danışmaq, hamını tərəzinin eyni gözünə qoymaq olmaz, guya ki, dürüst məmurlar da var.

Nəzəri olaraq, razılaşaq ki, ölkədə dürüst məmurlar da var. Amma faiz etibarilə onlar nə qədərdir, məmurlar ordusunun 1 faizini təşkil edirlərmi? Etmirlər.

Ona görə də heç kəs nə özünü, nə xalqı, nə də medianı aldatmağa çalışmasın. Oğurluğun, talançılığın norma olduğu ölkədə "dürüst məmur" nadir istisnadır.

Məsələn, yüksək və orta mənsəbli yüz "nümunəvi məmur"un adını yazaq, loxotrona ataq, qarışdırıb-qarışdırıb, içindən üçünü seçək və mal varlıqlarını, fəaliyyətlərini araşdıraq. Məlum olacaq ki, üçü də milyonçudur, rəsmi və qeyri-rəsmi olaraq böyük varidata sahibdirlər.

Türkiyənin turizm bölgəsi Bodrumda 20 milyona 16 villa aldığına dair sənədlər açıqlanan şəxs nə qədər təkzib etsə də, ortada etirafı da var, deyir ki, onun doğrudan da Bodrumda 60 min dollarlıq evi var. Görünür, 16 villanın sahibi olduğunu etiraf etməkdənsə, ən yaxşısı birini etiraf edib, 15-ni danmaqdır.

Bundan başqa, məmurun övladı Barselonada təhsil alır, onun təhsil haqqı və dolanışığı da yəqin ki, ailəyə 1 villanın qiyməti qədər xərcə başa gəlir. Bundan başqa, rəis müavini Bakıda kirayədə yaşamır, Bodrumda villası olanın Bakıda da bahalı evi və bağ villası olmamış olmaz. Bunların üstünə onun mindiyi avtomobillərin qiymətini də gəlsək, ortada əməlli-başlı sərvət var.

Ölkəmizdə çoxdan məşhur olmuş ifadə ilə desək, özgənin pulunu hesablamaq yaxşı iş sayılmadığına görə, bu işi korrupsiya ilə mübarizə aparan, yaxud aparmalı olan strukturlara həvalə edərək, açar sualı səsləndirək: "Bu varidat hardandır?"

Qoy ölkənin korrupsiya girdabına sürüklənməsinin qarşısını almalı olan məsul şəxslər bu suala cavab alsınlar. Həm də təkcə adı hallanan şəxsdən yox, onun kimi və ondan betər olan yüzlərlə başqalarından da.

Kiçik müəssisə və təşkilatların xırda şöbələrinin müdir müavinlərinin seyfindən 1000, 1500 manat rüşvət pulu tapıb aşkara çıxarmaq, kiçik məmurları ifşa etmək asandır, əsas məsələ ali və orta ranqlı məmurların korrupsiya maxinasiyalarını ifşa etməkdir.

1500 manatları bir kənara buraxıb (onların sırası sonra gələr), amansızcasına talanan milyonların, milyardların hesabını aparmaq gərəkdir.

Bu ölkəni bu günə qoyan o milyonçu və milyarderlərdir.

Qubada birgə istirahətə dəvət etdiyi müğənni məşuqəsi gələnə qədər samovarı dollar əskinası ilə qızdırıb-qaynadan orta ranqlı məmur var, pulu odun qamqalağı sayır, o tərəfdə isə məmləkətin minlərlə kasıb zəhmətkeşi borcları üzündən intihar həddindədir. Budurmu ədalət?

Bu elə mövzudur ki, bir bazar günü gündəmə gəlməli deyil, 365 gün gündəmdən çıxmamalıdır. Ta ki...

**Azərbaycan Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) ilə 4 milyard dollarlıq təcili yardım paketinin cəlb olunması ilə bağlı danışıqlar aparır. Bu məsələnin müzakirəsi üçün BVF nümayəndələri artıq Bakıdadır. "Reuters" agentliyi isə öz mənbələrinə istinadən xəbər verir ki, Azərbaycan hökuməti BVF-dən 3 mlrd. dollar, DB-dən 1 mlrd. dollar cəlb etmək niyyətindədir.**

# Ölkə böyük borclanmaya gedir-4 milyard dollar...

## Ekspertlər bildirirlər ki, borcun artması gələcəyimiz üçün təhdiddir, qeyri-effektiv sistemdə borclar da böyük neft pulları kimi qeyri-şəffaf xərclənəcək...

**Ekspert Qubad İbadoglu** məsələ ilə bağlı bildirib ki, Azərbaycan böyük borclanmaya gedir: "Nüfuzlu "Financial Times" qəzeti Azərbaycanla bağlı "Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı neftlə əlaqəli defoltu qabaqlayan hərəkətə keçir" adlı yazı dərc edib. Yazıdan belə məlum olur ki, BVF-nin nümayəndələri bu məqsədlə fevralın 4-dək Bakıda səfərdə olacaq. Eyni zamanda bugünlərdə digər beynəlxalq maliyyə kredit institutlarının, o sıradan da Asiya İnkişaf Bankının (AİB) və Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələri də Bakıya gəlir. Qəzetin yazdığına görə, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında olan danışıqlarda 4 milyard dollarlıq kredit götürmək əsas müzakirə mövzularından biridir. Xatırladım ki, bugünlərdə Azərbaycan hökuməti ilə AİB arasında da 1,1 milyard dollarlıq kredit sazişi imzalanıb. Göründüyü kimi, danışıqlar uğurla başa çatarsa, bu il ərzində ölkə iqtisadiyyatına son 20 illik borcdan çox kredit cəlb oluna bilər. ÜDM-in dollar ifadəsində getdikcə kiçildiyini də nəzərə alanda bu minvalla xarici borcların yekunda payı 1 il ərzində 2 dəfəyədək arta bilər".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, hökumət vəziyyətdən çıxmaq üçün təhlükəli yol seçib:** "Ölkənin gəlirləri ciddi azalır, azalmaqda da davam edir, hökumət isə heç bir ciddi islahat aparmır, apara bilmir, vəziyyətdən çıxmaq üçün ən primitiv və təhlükəli yol- borclanma yolunu tutub. Azərbaycanın konsalidə olunmuş borcu 21 milyard dollardan çoxdur. 7,5 milyard dövlət borcu, 8,5 milyard dövlət zəmanəti ilə şirkətlərin borcu, 5,7 milyard bank sektorunun borcudur. Bu isə bu günə olan ÜDM-in 60 faizindən çoxdur. Borcun artması gələcəyimiz üçün təhdiddir, indiki qeyri-effektiv sistemdə borclar da böyük neft pulları kimi qeyri-şəffaf xərclənəcək, iqtisadiyyata ciddi dəstək olmayacaq. Bu günə qədər xərclənən 130 milyard neft pulu hansı fundamental problemimizi həll etdi? Qarabağımı qaytardıq? Təhsilmi düzəldi? Səhiyyədəmi keyfiyyət dəyişikliyi oldu? Bəlkə dayanıqlı, ixracata köklənmiş iqtisadi model qura bildik? 22 ildir hakimiyyətdədirlər, nazirləri indi çıxıb deyir ki, Azərbaycanda yeni inkişaf modelinə keçilməlidir. Bir sözlə, indiki sistem daxilində borclanmağa getmək uşaqlarımızın, ölkəmizin gələcəyini də yeyib-bitirmək demək olacaq".



**Ekspertin sözlərinə görə, borc təklif edən BVF və Dünya Bankı ciddi şərtlər qoymalı, əvvəlki kimi bizim ölkəyə 3-cü "sort" ölkə kimi baxmamalıdırlar:** "Şərtlər şəffaf idarəçilik, kiçik və çevik dövlət, azad məhkəmə, vətəndaş nəzarətinin gücləndirilməsi, azad media, ÜTT-yə üzvlük- bu şərtlər olmadan borc versələr, deməli, həmin o təşkilatlar da korrupsiyaya bulaşmış beynəlxalq "monstrlardır"".

**Ekspert Fikrət Yusifov isə deyib ki, Azərbaycan kredit götürsə də, öz şərtlərini diktə edəcək:** "Azərbaycan hökumətinin Dünya Bankından, Beynəlxalq Valyuta Fondundan məhz 4 milyard dollar həcmində kredit almaq istəyi barədə mətbuatda yayılmış informasiyaların səhihliyi bir qədər şübhə doğurur. İnandırıcı deyil ki, Azərbaycan hökuməti və Beynəlxalq Maliyyə İnstitutları hər hansı razılaşma sənədi imzalamadan müzakirələrin predmeti barədə ictimaiyyətə açıqlama versinlər. Yayılmış informasiyada dəqiq mənbə göstərilmədiyindən bir qəzetin yaydığı xəbəri real fakt kimi təqdim etmək və dəqiq rəqəm söyləmək doğru deyil. Əlbəttə, Azərbaycan hökuməti beynəlxalq maliyyə qurumları-Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İslam İnkişaf Bankı və sair bu kimi qurumlarla müzakirələr aparır. Ola bilsin ki, Azərbaycana hansısa maliyyə institutu tərəfindən kreditlər ayrılsın. Prezident də son müşavirədə Azərbaycanın xarici borclanmaya gedə biləcəyinə dair fikirlər səsləndirmişdi. Bizdə olan məlumata görə, hazırda bu istiqamətdə müəyyən fikir mübadiləsi aparılır. Lakin bu danışıqlar özünün hazırlıq mərhələsindədir və hər hansı dəqiq məbləğ ətrafında söhbət aparılmır. İndiki müzakirələr kreditə ehtiyacın nə qədər olduğunu müəyyənləşdirmək ətrafında qurulub. Yəni hələ ki kreditin şərtləri müzakirə predmeti deyil. Ümumiyyətlə, hesab etmirəm ki, Azərbaycan hökuməti beynəlxalq maliyyə qurumlarının təklif edəcəyi kreditlər üzrə bütün şərtləri qəbul edəcək qədər çıxılmaz durumdadır. Azərbaycan kredit götürsə, bunu yalnız onu qane edəcək şərtlər daxilində edə bilər".

Sabiq maliyyə naziri Saleh Məmmədov isə həmişə böyük borclanma tərəfdarı kimi çıxış edib.

❑ **RÖYA**

# İcra başçısı postu dəbdən düşür-səbəbi...

## Ekspertlər hesab edirlər ki, mövcud vəziyyətdə icra başçılarından daha çox məsuliyyət tələb edildiyi üçün bu vəzifə o qədər də cəlbedici olmayacaq

**Bu günlərdə prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə icra başçılarının dövlət büdcəsindən ayrılmış vəsaitin israfçılıqla xərclənmələri məsələsinə bir daha toxunuldu. Bundan başqa, digər iqtidar nümayəndələri də öz açıqlamalarında Azərbaycanda bəzi icra başçılarının xalq və dövlət üçün faydalı olan işlər görmədiklərini xüsusi vurğulayırlar. Hətta bəzi şəxslər bu strukturların, ümumiyyətlə, ləğv edilməli olduğunu da söyləyirlər. Ekspertlər isə hesab edirlər ki, mövcud vəziyyətdə icra başçılarının üzərinə xeyli məsuliyyət düşür. Bu baxımdan icra başçısı vəzifəsini tutmaq indən sonra o qədər də cəlbedici olmayacaq.**



Mövzu ilə bağlı musavat.com-a danışan **politoloq Fərhad Mehdiyev** öncə Azərbaycanda icra başçılarının görməli olduqları işlərdən danışıb: "Azərbaycanda bələdiyyələrin səlahiyyətləri azdır. Bunun əksi olaraq, yerlərdə səlahiyyətlərin çoxu icra başçılarına aiddir. Bura abadlıq işlərindən tutmuş, əhalinin müəyyən sosial problemlərinin həll olunmasına qədər məsələlər daxildir. İdarəetmə formalarına gəldikdə isə bizdə icra başçılarının çoxunu ixtisaslaşmış mütəxəssis saymaq olmaz. Doğrudur, bu vəzifəyə təyin edilən şəxslər əsasən yerli strukturlardan gətirilirlər. Ancaq hesab edirəm ki, onların gördükləri işlər peşəkarlıqdan xeyli uzaqdır. Eyni zamanda ölkədə icra başçılarının korrupsiya əməlləri də var. Bu şəxslərin bəzilərinin ölkə üçün vurduqları zərərlərin isə gələcəkdə bərpası çox çətin başa gələcək. Ölkədə yol kənarlarındakı boş yerlərin çoxu qeyri-şəffaf formada satılır. Sənədlərə baxdıqda görürük ki, guya bu yerlər kiməsə icarəyə verilib. Halbuki realda bu belə deyil. Həmin yerlərdə hansısa obyekt açılır. Tutaq ki, əhalinin iş yerlərinə ehtiyacı var və bu da ona görə edilir. Ancaq dünya təcrübəsinə görə, həmin yerlər müsabiqə yolu ilə ayrılmalıdır".

**Ekspert bildirib ki, icra başçılarının görməli olduqları işlər gördükləri işdən kifayət qədər çoxdur:** "Bakıda Yeni Yasamal kimi böyük yaşayış massivi salınır. Buranı şəhərə bağlayan cəmi iki dar yol var. Hazırda Köhnə Yasamaldan ora bir yol çəkilməli olduğu halda bu edilmir. Eyni zamanda digər yerlərdə də tikintilər var, ancaq yollar yoxdur. Çünki yol çəkilməli əraziləri satırlar. Bu kimi məsələlər həm qeyri-peşəkarlıqla, həm də icra strukturlarının daxilində məmarlıqdan tutmuş digər bir çox sahələrdə korrupsiya faktlarının olması ilə əlaqəlidir. Ötən illərdə regionlara büdcədən ayrılan vəsait də onların normal iş ortaya qoymaları üçün kifayət edirdi. Prezident bildirir ki, mən başda olmaqla bütün məmurlar xalqın xidmətçisi olmalıdırlar. Açıq şəkildə görünür ki, bu gün icra başçılarının əksəriyyəti xalqa xidmət etmirlər".

**Politoloqun sözlərinə görə, prezidentin tapşırıqlarına baxmayaraq, icra hakimiyyətlərində bundan sonra müsbətə doğru hər hansı bir dəyişikliyin olacağı gözlənilmir:** "Bu tapşırıqların, məncə, effekti olmayacaq. Hazırda bu sahədə çox güclü kadr islahatlarının aparılmasına ehtiyac var. Burada ən yaxşı nümunə kimi Saakaşvilinin Gürcüstanda apardığı islahatları götürmək olar. O, bəzi idarələri tamamilə bağladı. Sonra isə həmin qurumları yeni kadrlarla qurdu. Bu baxımdan təbii resursu olmayan Gürcüstanda inkişaf tempi, heç də Azərbaycandan geri qalmır. Vəzifəyə gətirilən insanlar vətənpərvər olmalıdırlar. Həmin insanların birinci dərdi xalqın maraqları olmalıdır. Onun varlanmaq, uşaqlarına yaxşı gələcək qurmaq kimi niyyətləri varsa, o, yaxşı kadr deyil".

**İcra hakimiyyətlərinin ləğvi məsələsinə gəlincə isə F.Mehdiyev bunları dedi:** "Bu kimi təkliflərin verilməsi vəziyyətin çıxılmaz olduğunun göstəricisidir. Halbuki bütün dövlətlərdə icra hakimiyyətləri var. Hələ unitar ölkələrdə bu, əvəzolunmaz strukturdur. Sadəcə olaraq, Avropa ölkələrində icra hakimiyyətlərinin səlahiyyəti Azərbaycanda olduğu kimi geniş deyil. Orada bələdiyyələrə daha çox səlahiyyət verilib. Azərbaycanda isə əksinədir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 21 (6342) 29 yanvar 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ məsələsi böyük güclərin "alver vasitəsi"nə çevrilir

## Minsk Qrupunun işğalçıya deyil, işğala məruz qalmış Azərbaycana güc nümayişinin pərdəarxası; ATƏT-in İrəvan ofisi Ermənistanı qoyub AŞ PA-nı niyə suçladı? Azərbaycanlı ekspert: "Bir daha əmin olduq ki..."

**Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Dağlıq Qarabağla bağlı qətnamənin müzakirəyə çıxarılması Minsk Qrupu həmsədrlərinin gerçək mahiyyətini və güddükləri hədəfi bir daha qabarıq şəkildə ortaya qoydu. Qətnamənin qəbulu 4 səs fərqlə və məhz həmsədrlərin birbaşa və ya dolayı müdaxiləsi ilə tormozlansa da, prosesin özünə çox mühüm bir faydası da oldu.**





Bu fayda da ondan ibarətdir ki, Azərbaycan tərəfində artıq şübhə qalmadı ki, Minsk Qrupu adlanan format Qarabağ ixtilafını beynəlxalq hüquq normaları və BMT qətnamələri, Azərbaycanın təməl haqqı çərçivəsində çözmək iqtidarında deyil və həmsədrlər daha çox öz ölkələrinin maraqlarını əsas götürürlər, nəinki beynəlxalq normaları.

AŞ PA-dakı sənədin qəbuluna müqavimət, hətta quruma təzyiqlər bir daha nümayiş etdirdi ki, Minsk Qrupu həmsədrləri fiasko olan 23 illik səmərəsiz vasitəçilikdən nəticə çıxarmaq əvəzinə, mənasız fəaliyyətlərini bundan sonra da davam etdirmək əzmindədirlər və üstəlik, hansısa başqa qüvvənin Qarabağ problemi ilə məşğul olmasına dəhşətli dərəcədə qısqanc yanaşırlar.

Belədə vasitəçilərə ünvanlı tam məntiqli və yerində olan bir sual ortaya çıxır: özünüz problemi nizamlamaq bir qırağa, 23 ildə heç 1 sm belə yerindən qaldıra bilmədiniz, heç olmasa, manеə yaratmayın.

***

**İşin ən absurd tərəfi də odur ki, bu formatın özünü doğrultmamasına rəğmən, həmsədrlər hələ də özlərini alternativsiz sayırlar. Hələ üstəlik, AŞ PA-nı günahkar çıxarırlar. ATƏT-in İrəvan ofisinin məsələ ilə bağlı mövqeyi buna əyani sübutdur.**

"AŞ PA ATƏT-in əsas prinsiplərini qulaqardı edərək xüsusi xətt yürüdür". Bu sözləri İrəvan ofisinin başçısı, səfir Andrey Sorokin erməni portalına müsahibəsində AŞ PA-nın Sərsəng su anbarı ilə bağlı qəbul elədiyi sənədin Qarabağ danışıqlarının gedişinə neqativ təsir edib-etməyəcəyi barədə sualı cavablandırarkən deyib.

**Səfir bildirib:** "AŞ PA-nın qış sessiyasının gündəliyinə Ermənistan üçün iki sərt və xoşagəlməz məruzə daxil edilmişdi. Onlardan birini gündəlikdən çıxarmaq mümkün oldu. Bu artıq qələbədir. Əfsus ki, ikincini çıxarmaq mümkün olmadı". ATƏT nümayəndəsi onu da əlavə edib ki, "əsas məsələ Qarabağ problemini Minsk Qrupu çərçivəsində həll eləməkdir".

Diqqət edildi yəqin ki, ATƏT-in İrəvan ofisinin rəhbəri erməni işğalını birmənalı şəkildə pisləyən Qarabağ qətnaməsinin keçməməsini qələbə sayır - ermənilər kimi. Bunun ardınca onun konflikti "Minsk Qrupu çərçivəsində" necə gördüyünü təsəvvür eləmək çətin deyil.

Azərbaycan illərdir məhz elə buna etiraz edir ki, ATƏT-in vasitəçilik institutu artıq tərəfsiz deyil, qərəzlidir və işğalçı tərəfin maraqlarından çıxış eləməklə öz nüfuzunu və ədalətli arbitr imicini itirib. Üçüncü on ildir problemin yerində qalmasının yeganə səbəbi elə budur. Azərbaycan ona etiraz edir ki, Qarabağ məsələsi böyük güclərin "alver vasitəsi"nə çevrilməkdədir. Bu üzdən rəsmi Bakının tam haqqı çatır ki, başqa, daha ədalətli vasitəçilər və həll formatları axtarışına çıxsın.

***

**O ki qaldı cənab Sorokini təəssüfləndirən ikinci qətnamə və onun qəbuluna, onun nədən belə məyus olduğuna sənədin mətninə nəzər salmaqla asanlıqla əminlik hasil eləmək olar. Yeri gəlmişkən, erməni ekspertlər də bu qətnamənin Ermənistan üçün Qarabağ qətnaməsindən heç də az təhlükəli olmadığını bəyan ediblər. Həm də ictimai marağı nəzərə alıb, sənədin mətni təqdim edirik:**

**"1.** Parlament Assambleyası bütün üzv dövlətlərə xatırladır ki, 1966-cı il Helsinki və 2004-cü il Berlin Qaydalarına əsasən, sudan istifadə hüququ həyat və sağlamlıq üçün vacibdir və bununla, digər insan hüquqlarından istifadənin ilkin şərtini təşkil edir. Assambleya dövlətlərin öz əhalisini yetərli, təhlükəsiz və əlverişli su ehtiyatları ilə təmin etmək öhdəliyini vurğulayır.

**2.** Assambleya hesab edir ki, içməli sudan maneəsiz istifadə (suya maneəsiz çıxış) hər bir dövlət üçün əsas hüquq, həyat mənbəyi və strateji əhəmiyyətə malikdir və sərhədlərin mövcudluğu bu istifadəni məhdudlaşdıra bilməz. Assambleya təsdiq edir ki, qəsdən sudan məhrum etmə günahsız vətəndaşlara zərər yetirmə vasitəsi kimi istifadə edilə bilməz.

**3.** Assambleya bildirir ki, qəsdən süni ətraf mühit böhranı yaratmaq "ekoloji təcavüz" kimi qəbul edilməli və ekoloji fəlakət zonaları yaratmaq, həmçinin aidiyyəti əhalinin normal yaşamını çətinləşdirmək məqsədilə bir dövlətin digərinə qarşı düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir.

**4.** Assambleya qınayır ki, Azərbaycanın Dağlıq Qarabağ və digər ətraf ərazilərinin Ermənistan tərəfindən işğalı Azərbaycanın Aşağı Qarabağ bölgəsində yaşayan əhalisi üçün oxşar humanitar və ekoloji problemlər yaradır.

**5.** Assambleya xatırladır ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri 20 may 2014-cü il tarixli bəyanatında tərəflərin regionun ümumi faydası üçün bu su resurslarından birgə istifadə üzrə razılıq əldə edəcəyinə ümid edib.

**6.** Assambleya bildirir ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindən birində yerləşən Sərsəng su anbarında 20 ildən artıq dövr ərzində mütəmadi baxım işlərinin aparılmaması bütün ətraf ərazilər üçün təhlükə yaradır. Assambleya vurğulayır ki, Sərsəng su anbarının baxımsız vəziyyətdə qalması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər.

**7.** Bu vacib humanitar problemi nəzərə alaraq, Assambleya tələb edir:

**7.1.** Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və bununla:

**7.1.1.** müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi;

**7.1.2** sutoplama dövründə Sərsəng su resurslarının istifadəsi və onların saxlanmasının beynəlxalq idarəçiliyi;

**7.1.3.** suvarma kanalları, Sərsəng və Madaqiz su anbarlarının vəziyyəti, payız və qış mövsümündə su verilməsi cədvəli və su hövzələrinin həddən artıq istismarına beynəlxalq nəzarət;

**7.2.** Ermənistan hakimiyyəti su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırsın.

**8.** Assambleya bu məsələ ilə bağlı hesabatın hazırlanması prosesində Ermənistan parlament nümayəndə heyəti və hakimiyyətinin əməkdaşlıq etməməsi faktını kəskin şəkildə pisləyir. Assambleya Ermənistanın bu kimi davranışının Avropa Şurasının tamhüquqlu üzvü kimi üzərinə götürdüyü öhdəliklərinə uyğun gəlmədiyini hesab edir. Assambleya bu və parlamentarilərin səlahiyyəti dövründə yarana biləcək buna oxşar məsələlərdə atacağı addımları nəzərdən keçirir.

9. Assambleya aidiyyəti tərəfləri Sərsəng su anbarının resurslarından birgə istifadə sahəsində yaxından əməkdaşlıq etmək üçün öz səylərini artırmağa çağırır və bildirir ki, bu kimi əməkdaşlıq istənilən münaqişənin həlli üçün vacib olan etimad quruculuğu tədbirlərini yarada bilər".

***

Göründüyü kimi, sənəddə beynəlxalq hüquqa tam saygı çərçivəsində Ermənistan öz adı ilə çağırılıb və Azərbaycan ərazilərinin hansısa mifik "DQR ordusu" tərəfindən deyil, məhz Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt edildiyi açıqca göstərilib, bu qüvvələrin ölkəmiz ərazisindən qeyd-şərtsiz çıxarılmalı olduğu vurğulanıb.

Odur ki, erməni konyakının təsiri altında olan bu dələduz ofis başçısına sual eləmək istəyirsən: AŞ PA bununla ATƏT-in hansı prinsiplərini qulaqardı edib və ya konkret hansı beynəlxalq qanunları pozub? Sadalaya bilərsizmi?

***

Minsk Qrupu həmsədrlərinin AŞ PA sənədlərinə münasibətdə tutduqları mövqe gözlənildiyi kimi, Azərbaycanda istər rəsmi, istərsə də qeyri-rəsmi səviyyədə və ekspert dairələrində sərt etirazla qarşılandı.

"ATƏT-in Minsk Qrupuna təsir mexanizmləri işlənməlidir". Bunu salamnes-a siyasi **ekspert Arzu Nağıyev** deyib. Onun sözlərinə görə, AŞ PA-da Azərbaycanın haqlı mövqeyinin nəzərə alınmaması belə deməyə əsas verir: "AŞ PA-dakı səsvermə zamanı səs fərqinə diqqət yetirəndə görünür ki, ən böyük təsir məhz həmsədrlərin bəyanatlarından sonra olub. Təbii ki, bu da onların təmsil etdiyi dövlətlərin mövqeyidir. Bunu Rusiya xarici işlər naziri Sergey Lavrovun yeddi rayonla bağlı bəyanatında da gördük".

**Arzu Nağıyevin fikrincə, hazırda ortada olan nəticə budur ki, nüfuz savaşı davam edir və Azərbaycan bu istiqamətdə müstəqil siyasətini yürütməli, ordu quruculuğuna və xarici siyasətə önəm verməlidir:** "Bir daha əmin olduq ki, güc nümayiş etdirməklə təcavüzkarı danışıqlar masasına əyləşdirmək ən müsbət yoldur".



Arzu Nağıyev

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Tikinti bumu yenidən başlaya bilər

## İnşaat sektorunda islahatlar aparılacaq

**Paytaxt Bakıda yeni tikinti bumu başlaya bilər. Ölkə başçısının son müşavirədəki çıxışında yeni tikinti layihələrinin həyata keçirilməsi, bunun üçün sahibkarlara güzəştlərin tətbiq olunması, ipoteka şərtlərinə dəyişiklik edilməsi ilə bağlı mesajlar da yaxın zamanlarda paytaxtda yeni tikinti dalğasının start götürəcəyini deməyə əsas verir. İpoteka şərtlərinə edilən dəyişiklik və bu sahəyə ayrılan vəsaitin artırılması da yeni tikinti layihələrinin həyata keçirilməsi üçün stimul ola bilər. Lakin bu sahədəki mövcud problemlər, tikinti üçün çoxsaylı icazələrin alınması, süni bürokratik əngəllər və sair nəzərdə tutulan prosesin qarşısını ala bilər.**

Dövlət başçısı İlham Əliyev də son çıxışında tikinti ilə bağlı bütün süni əngəllərin aradan qaldırılmasını əsas şərt kimi qoydu. **Sitat:** "Tikinti ilə bağlı heç bir süni əngəl olmamalıdır. İş adamlarına da müraciət edirəm, sizdən kimsə qanunsuz nəsə tələb edəcəksə birbaşa məlumat verin və o qanunsuz əməlləri törətmək istəyənlər ciddi şəkildə cəzalandırılacaq. İpoteka xətti ilə böyük tikinti layihələri icra edilə bilər. Təəssüf ki, bizdə bu sektorda durğunluq müşahidə olunur. Mən ipoteka ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm, o cümlədən Nazirlər Kabinetinin toplantılarında. Ancaq bu proses, hələ ki, kütləvi xarakter almayıb. Bunu dərhal başlamaq, yəni davam etdirmək lazımdır. Təxirəsalınmaz tədbirlər görülməlidir".

Ölkə başçısının da bildirdiyi kimi, bu sahədə süni əngəllər var və onlardan biri də tikinti üçün müraciət edən sahibkarlardan saysız-hesabsız sənədlər tələb olunması, eləcə də Bakıda iri tikinti layihələri üçün yer olmadığının bildirilməsidir. Bunun aradan qaldırılması üçün qonşu Rusiyada tikinti sektoruna nəzarəti bir qurumda cəmləşdirmək məqsədilə Tikinti Nazirliyi də yaradılıb. Ekspertlər tərəfindən oxşar təcrübənin Azərbaycanda da tətbiq edilməsi və tikintiyə aid bütün səlahiyyətləri əlində cəmləşdirən Tikinti Nazirliyinin yaradılması da təklif olunur.

**Tikinti-əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yeni tikililərin şəhərsalma planına əsasən sökülməsi nəzərdə tutulan yerlərdə aparılmasına ehtiyac var:** "Təqribən il yarım öncə prezidentin tapşırığı olmuşdu ki, Bakı şəhərində tikinti işi aparmaq istəyən şirkətlərə boş torpaq sahələri deyil, şəhərsalma planı üzrə söküntüsü nəzərdə tutulan ərazilər ayrılsın və tikinti şirkətləri həmin ərazilər üzrə köçürmə aparıb daha sonra tikintini həyata keçirsinlər. Bu baxımdan Bakı Şəhər İcra Hakimiyyətinin tikinti şirkətlərinə Bakıda boş yer olmaması ilə bağlı cavab verməsini təbii qarşılamaq lazımdır. İndiki halda əsas məqsəd tikinti tempini artırmaq, bu sahəyə investisiya qoyuluşları üçün normal şərait yaratmaq, investisiya cəlbediciliyini artırmaq üçün sənədləşmə işlərində müəyyən qədər güzəştlərə getmək, tikintiyə verilən icazələrin sayını azaltmaq və sair məsələlər həyata keçirilməlidir. Lakin təəssüflər olsun ki, hələ ki bu istiqamətdə ciddi addımlar müşahidə olunmur. Hər bir halda bu bir qədər uzunmüddətli prosedurlardır. Hesab edirəm ki, bunun nəticəsini qarşıdakı dövrlərdə, ən azı bir aydan sonra konkret təhlil etmək olar. İndiki halda hələlik ümumiləşdirilmiş məlumat yoxdur. Ayrı-ayrı tikinti şirkətlərinə verilmiş hüquqlar var. Lakin bu, yekun nəticəyə gəlmək üçün qənaətbəxş deyil".

**Tikinti sektorunda sahibkarlara yaradılan süni əngəllərə toxunan ekspert bu sahədə islahatların aparılmasının vacibliyini də vurğuladı:** "Cənab prezident də müşavirədə vurğuladı ki, Azərbaycan nüfuzlu beynəlxalq hesabatlarda bir sıra məsələlərə görə, məsələn, daşınmaz əmlakın qeydiyyatına görə ön sırada olsa da, tikintiyə verilən icazələrin sayına görə geridədir və ən sonuncu yerlərdən birini tutur. Bu səbəbdən ölkə başçısı tapşırıq verdi ki, bu sahədə müəyyən islahatlar aparılmalıdır. Burada əsas məsələlərdən biri məmur-sahibkar münasibətləridir. Tikinti üçün lazım olan icazələrin çoxluğu bir tərəfdən bürokratik əngəllər yaradır, digər tərəfdən isə xərcləri artırır. Bu da tikinti sektoruna marağın azalmasına səbəb olur. Bu gün Bakı şəhərində tikintinin bir kvadratmetri 700-800 manata təklif olunur. Bunun səbəblərindən biri tikintiyə yaradılan bürokratik əngəllərlə bağlıdırsa, biri də tikinti materiallarının baha olması və bu malların ölkəyə gətirilərkən yüksək gömrük rüsumu və vergiyə məruz qalması ilə bağlıdır. Hesab edirəm ki, bu sahədə kompleks addımlar atılmalı və ciddi islahatlara gedilməlidir".

**Tikinti Nazirliyinin yaradılması ilə bağlı təkliflərə münasibət bildirən Ramil Osmanlı bildirdi ki, hazırkı şəraitdə yeni bir mərkəzləşmiş struktur vahidinin yaradılmasının tərəfdarı deyil:** "Hesab edirəm ki, bəzi nazirlik və komitələr birləşdirilməlidir. Azərbaycanda tikinti nazirliyinin yaradılmasına ehtiyac yoxdur. Bu gün bu sahəni müəyyən fəaliyyətlə məşğul olan nazirlik və ya komitələrdən birinə həvalə etmək olar. Məsələn, bu məsələni Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə və ya Arxitektura və Şəhərsalma Komitəsinə vermək olar. Ayrı-ayrı nazirlik və komitələrdə üst-üstə düşən səlahiyyətlər varsa, onları həmin qurumdan alıb bir qurumda birləşdirmək olar. Bunun üçün hansısa nazirliyin yaradılmasına ehtiyac yoxdur. Bu variantlardan biridir. Hər hansı nazirliyin adında bir sözün dəyişdirilməsi belə on minlərlə manat vəsait hesabına başa gəlir. O səbəbdən hesab etmirəm ki, yeni bir nazirliyin yaradılmasına ehtiyac var. İndiki halda nazirliklərdə, komitələrdə üst-üstə düşən fəaliyyətləri mərkəzləşdirilmiş bir strukturda cəmləşdirmək olar. Tikintiyə nəzarət göstərən bir neçə nazirlikdə olan səlahiyyətləri ixtisara salıb bütün məsələləri bir quruma vermək olar".

❑ **Nərgiz LİFTİYEVA**

# Keyfiyyətsiz ət baytarların sonunu gətirdi

## **Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəhbəri:** "Bu istiqamətdə həm hüquqi, həm də fiziki şəxslərə qarşı ciddi inzibati tədbirlər görüləcək"

**Kənd Təsərrüfatı Nazirliyinin kollegiya iclasında işdə ciddi nöqsanlara yol verdiyinə görə 4 rayon və Bakı Şəhər Baytarlıq İdarəsinin rəisləri, həmçinin Dəmir Yolunda Baytarlıq Nəzarəti İdarəsinin rəisi işdən azad edilib, 2 rayon baytarlıq idarəsinin rəisləri yaş həddinə görə təqaüdə göndərilib, 1 rayon və 1 şəhər baytarlıq idarəsinin rəisləri ilə bağlanmış əmək müqaviləsinə xitam verilib. 4 rayon həmçinin Gəncə və Mingəçevir şəhər baytarlıq idarələrinin rəislərinə şiddətli töhmət, 3 rayon baytarlıq idarəsinin rəisinə töhmət elan edilib.**



Xatırladaq ki, bir neçə gün öncə Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mütəxəssisləri mənşəyi məlum olmayan, baytarlıq-sanitariya cəhətdən keyfiyyəti və təhlükəsizliyi şübhə doğuran ət və ət məhsullarının satışının qarşısını almaq məqsədi ilə Bakı şəhərində reyd keçirib. Reyd zamanı Qaradağ rayonu ərazisində Dövlət Yol Polisi postunda Bakı şəhərinə satış üçün Ağcabədi rayonu Aşağı Avşar kəndindən gətirilən 1100 kiloqramlıq mənşəyi bəlli olmayan ət aşkarlanıb. Həmin ətlər alınaraq yanvarın 27-də Balaxanı məişət tullantıları poliqonunda baytarlıq sanitariya tələblərinə uyğun olaraq zərərsizləşdirilərək basdırılıb.

Məlum olub ki, bu ətlər mal əti adı altında Bakıya satış məqsədilə gətirilən at əti olub. Qeyd edək ki, bu kimi hallar ilk dəfə baş vermir. Zaman-zaman kiloqramı 5 manata satılan mənşəyi bəlli olmayan ətlərə rast gəlinir. Dolanışığını güclə təmin edən az gəlirli ailələr bu ətlərdən alırlar. Təbii ki, bu ətlər alıcılara mal əti adı ilə satılır. Redaksiyamıza daxil olan şikayətlərə görə iri marketlərdə satılan farşlara da heyvanın baş ətindən qatqılar qatırlar ki, bunu da alıcılar əti alıb bişirən zaman onun iyindən və tamından dərhal hiss edir. İlk görünüşdə isə bunu hiss etmək mümkünsüzdür.

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəhbəri Yolçu Xanvəli "Yeni Müsavat"a açıqlamasında bu istiqamətdə reydlərin davam edəcəyini və ciddi inzibati tədbirlər görüləcəyini dedi:** "Mənşəyi bəlli olmayan, insan qidası üçün zərərli olan, insan həyatına təhlükə yaradan ətlər, ayrı-ayrı farşlar və digər heyvan və heyvan mənşəli məhsullarla bağlı daim reydlərimiz olur. Yanvarın 24-də alınan məlumat əsasında Qaradağ postunda Ağcabədi rayonunun Aşağı Avşar kəndindən gətirilən 1100 kiloqramdan artıq heyvan cəmdəyi aşkarlandı. Həmin heyvanlardan götürülən ət nümunələri Respublika Baytarlıq Laboratoriyasında müayinə olundu. Ekspertizanın nəticəsinə görə, götürülən 32 nümunədən 7-də at əti aşkarlandı. O ekspertizanın nəticəsinə uyğun götürülən 32 nümunənin kimyəvi müayinələri zamanı həmin ətlərin keyfiyyətsiz olduğu, baytarlıq sanitariya cəhətdən yararsız olduğu müəyyən edildi. Bütün bunlar nəzərə alınaraq yanvarın 27-də Balaxanı məişət tullantıları poliqonunda həmin ətlər zərərsizləşdirilərək basdırılıb. Bu istiqamətdə bizim reydlər daimi olub və olacaq. Mənşəyi məlum olmayan, keyfiyyəti şübhə doğuran, insan qidası və sağlamlığı üçün yararsız və təhlükəli olan heyvan və heyvan mənşəli məhsullarının emalı və satışının qarşısı qətiyyətlə alınır".

Y.Xanvəli bəzi insanların öz ciblərini doldurması üçün bu cür yollara əl atdığını dedi: "Müxtəlif insanlar bəzən murdar olan heyvanları öz şəxsi mənafeləri, öz ciblərini doldurmaq xətrinə ayrı-ayrı məntəqələrə gizli formada satırlar. Biz çalışırıq ki, bu kimi halların qarşısını alaq. Bu istiqamətdə həm hüquqi, həm də fiziki şəxslərə qarşı ciddi inzibati tədbirlər görüləcək".

**Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov isə mətbuata açıqlamasında əhalini ət alarkən diqqətli olmağa çağırıb. Ekspert bildirib ki, respublikada mal, qoyun əti az istehsal olunduğu üçün bəzi işbazlar xəstə, şikəst və ölmüş at leşini mal əti adı ilə Bakı və Sumqayıt şəhərlərində keçirilən kənd təsərrüfatı yarmarkalarında ucuz qiymətə əhaliyə satırlar:** "Yarmarkalarda satılan ətin qiyməti ucuzdur. Təxmini hesablamalarımıza görə, hər ildə 1500 tondan çox at əti kasıb əhali tərəfindən istehlak olunur. Ət alarkən diqqətli olun!"

❑ **Günel MANAFLI**

# Müxalifət partiyasının sədri fermer təsərrüfatını arıçılıqla əvəz edib

## “Maddi imkanım olsa, dövlət dəstək versə, bu imkanı və dəstəyi turizm sektoruna yönəldərəm”



“Yeni Müsavat”ın əməkdaşı Əhməd Orucun təsərrüfatında-arxiv

**Azərbaycan iqtidarı neftin ucuzlaşmasından Azərbaycanın gəlirlərinin aşağı düşməsini qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin sürətli inkişaf etdirilməsi və yeni özəlləşmənin həyata keçirilməsi ilə kompensasiya etmək istəyir. Artıq bəyan edilib ki, kənd təsərrüfatının inkişafı üçün yerlərdə fermerlərə, bu işdə təcrübəsi olan insanlara hökumət hər cür dəstək verəcək. İqtisadçılar bunu çoxdan edilməli olan doğru taktika hesab edirlər.**

Azərbaycan siyasətçiləri arasında fermer təsərrüfatı ilə məşğul olan yeganə siyasətçi Azadlıq Partiyasının sədri Əhməd Orucla söhbətimizdə təsərrüfatını genişləndirmək üçün bu imkandan yararlanmaq fikrində olub-olmadığını soruşduq.

**Əhməd Oruc** öncə bildirdi ki, aqrar sektorun inkişafı, kənd təsərrüfatına xüsusi diqqət ayrılacağı ilə bağlı bəyanatlar səslənsə də hələ ki ortada əməli addımlar yoxdur. Ölkənin kənd təsərrüfatını, iqtisadiyyatını hazırkı hökumətlə, talançı icra başçıları ilə inkişaf etdirmək mümkün olmayacaq. Kənd təsərrüfatının inkişafı üçün dövlət vəsaitlər ayırsa belə, korrupsiyaya öyrəşmiş məmurlar təbəqəsi yenə həmin vəsaitləri müxtəlif yollarla mənimsəyəcəklər: “Hazırkı hökumət, illərdir rayonlarda əhalini boğaza yığan icra başçıları heç bir islahata imkan verən deyil. Onlar bütün vasitələrlə ancaq və ancaq özlərinin qazanması haqda fikirləşirlər. Son vaxtlar aparılan həbslər, ortaya çıxan informasiyalar da göstərir ki, bu məmur ordusu milyardların üstündə oturub”.

**Əhməd Oruc məlumat verdi ki, üç ildir mal-qara saxlamır, təsərrüfatın profilini dəyişib:** “Üç ildir arıçılığa keçmişəm. Bu da professional səviyyədə deyil. Əsl arıçı olmaq, bu sahədən ciddi qazanc əldə etmək üçün illər sərf olunmalıdır. Əvvəl təsərrüfatım maldarlıq idi. Ona görə bu işə son qoydum ki, Bakı şəraitində səmərəsi olmadı. Otlaq sahəsi qıtlığı, otun, yemin bahalığı, dava-dərmanın bahalığı, işçilərin əmək haqları mal-qara saxlamaqdan gəlir əldə etməyi mümkünsüz edirdi. Mənim böyük bir büdcəm yoxdur ki, o xərcləri ödəyə bilim. Ona görə də profili dəyişdim. Bir işçi kifayət edir ki, yüzlərlə yeşik arıya qulluq eləyə bilsin. Dövlətin kənd təsərrüfatının inkişafı üçün ayırdığı vəsaitlər isə təəssüf ki, mənim kimi sadə adamların təsərrüfat sahəsinin inkişafına yox, ayrı-ayrı nazirlərin, komitə sədrlərinin, generalların fermalarının, fermer təsərrüfatlarının genişlənməsinə sərf edilib. Azərbaycanda arxasında hansısa böyük məmur dayanmayan, əldə edəcəyi kreditin bir hissəsini rüşvət kimi verməyən adi fermerin öz təsərrüfatını genişləndirmək üçün kredit əldə etməsi indiyə qədər mümkün olmayıb. Bu təcrübədən çıxış edərək düşünürəm ki, əgər bundan sonra da eyni qaydalar qalacaqsa, mənim və mənim kimi adamların kredit üçün müraciət etməsinin mənası olmayacaq. Şəxsən mən düşünürəm ki, maddi imkanım olsa, dövlət dəstək versə, bu imkanı və dəstəyi turizm sektoruna yönəldərəm. Azərbaycana turizmdən böyük gəlirlər gətirmək mümkündür”.

**Partiya sədri onu da vurğuladı ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı potensialı var. Sadəcə, bundan normal yararlanmaq lazımdır:** “Azərbaycanın əkinə yararlı olan, suvarılması mümkün olan ərazisinin böyük bir qismi istifadəsiz vəziyyətdədir. Bu da sistemsiz yanaşmanın, yuxarıda sadaladığım vəziyyətin nəticəsidir. Azərbaycanın bütün ərazisini suvarılan, əkinə yararlı torpaqlara çevirmək imkanları var. Azərbaycanın iqlimi elədir ki, il boyu, ildə iki dəfə məhsul götürmək mümkündür. Yerlərdə fermerlərə real şərait yaradılsa, onlardan rüşvət tələb edilməsə, dərman, toxum, yem monopoliyada olmasa, fermerlərin əldə etdikləri məhsulların normal qiymətə satılması üçün dövlət şərait yaratsa, inanın ki, Azərbaycan özünü kənd təsərrüfatı məhsulları ilə yüz faiz təmin edə bilər və ucuzluq yaranar. Eyni zamanda illər uzunu kəndlərdən işsizlik ucbatından Bakıya axın etmiş əhali geri qayıdar”.

**Əhməd Oruc özünün və digər bir qrup partiya sədrinin birləşib ortaya pul qoymaqla özəlləşməyə çıxarılacaq hansısa böyük obyektlərin özəlləşdirilməsi və nümunə olaraq işlətməsinin mümkün olub-olmadığı barədə sualımıza cavabında isə dedi ki, əvvəla, müxalifətin maddi imkanı, ikincisi, iqtidarın müxalifətə münasibəti buna imkan vermir:** “Sizin verdiyiniz sualda nəzərdə tutulan hal Azərbaycan kimi ölkə üçün deyil. Burda müxalifətin heç böhrandan çıxmaq üçün normal təklifləri belə hakimiyyət tərəfindən qəbul edilmir. Müxalifətçilərə uzaqdan-uzağa qohumluğu çatan iş adamları bu illər ərzində sıradan çıxarılıb. İndi siz düşünürsünüz ki, müxalifət liderlərinə hansısa böyük obyekti özəlləşdirməyə imkan verəcəklər? Özəlləşməyə gedilməsi də korrupsiyaya bulaşmış oliqarxların əmlaklarının bir qədər də artmasına gətirib çıxaracaq. Oliqarxlar indiyə qədər özəlləşdirə bilmədikləri böyük ərazisi olan müəssisələri ucuz qiymətə özününküləşdirəcəklər, büdcəyə az vəsait daxil olacaq, oliqarxlar isə əmlaklarının sayını bir az da artırmış olacaqlar. Ona görə də hansı yöndən baxsaq görərik ki, hazırkı hökumət buraxılmayınca, indiki icra başçıları korrupsiyaya bulaşmamış şəxslərlə əvəz olunmayınca, hökumət müasir iqtisadiyyatı, kənd təsərrüfatını bilən şəxslərdən təşkil olunmayınca, islahatlar, ayrılacaq vəsaitlər, dövlət dəstəyi müsbət nəticə verməyəcək.

İndiki vəziyyətdə isə belə görünür ki, Azərbaycan iqtidarı Pakistan yolunu tutur".

❑ E.SEYİDAĞA

# Bankların bağlanması maliyyə sistemində təlaş yaradıb

## Qubad İbadoğlu: “Mərkəzi Bankın missiyası yalnız qərar qəbul etmək olmamalıdır...”

**Ölkədə bir ayda altı bankın bağlanması bank sistemi ilə bağlı narahatlıqları artırıb. Ekspertlər lisenziyası alınacaq bankların sayının artacağını vurğulayırlar. Həmçinin artıq hökumət rəsmiləri də bankların birləşdiriləcəyi barədə təkliflər irəli sürürlər.**

Artıq “Qafqaz İnkişaf Bankı” ASC və “Atrabank” ASC-nin bank lisenziyaları ləğv edilib. Mərkəzi Bank bildirir ki, “Qafqaz İnkişaf Bankı” ASC və “Atrabank” ASC Əmanətlərin Sığortalanması Fonduna üzv banklardır və fond tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək. Mərkəzi Bank indiyə kimi “Bank of Azerbaijan”, “Gəncə Bank”, “NBC Bank” və “Yunayted Kredit Bank”ın lisenziyalarını ləğv edib.

Lisenziyalarının ləğvi banklar üçün gözlənilməzdir. Məsələn, bu gün səhər “AtraBank ”Cash İn" xidmətini aktiv etdiyi barədə məlumat yaymışdı. “NBC Bank” da lisenziyanın ləğv olunması qərarının onlar üçün gözlənilməz olduğunu bildirmişdi. **“Qafqaz İnkişaf Bankı”nın Müşahidə Şurasının sədri, Azərbaycan Banklar Assosiasiyasının keçmiş rəhbəri Eldar İsmayılov** isə fins.az-a açıqlamasında bildirib ki, “Azərbaycan Mərkəzi Bankının lisenziyamızı ləğv etməsini heç cür başa düşə bilmirik”. Onun sözlərinə görə, lisenziyanın alınması barədə qərar bank üçün gözlənilməz olub: “Bizim bank məcmu kapital və digər göstəricilərlə bağlı tələbi artıqlaması ilə yerinə yetirirdi. Prezident deyib ki, bank sektoru sağlamlaşdırılsın. Amma onu bu cür radikal addımlarla, kiçik bankları bağlamaqla etməzlər. Bu, qəbuledilməzdir. Daha liberal yollar var. Bazarda ancaq böyük bankların qalması o demək deyil, bank sektoru sağlam olacaq. Azərbaycan Beynəlxalq Bankı ölkənin ən böyük bankıdır, nə cür problemlər yaşadığı göz önündədir».

**Eldar İsmayılov deyib ki, Mərkəzi Bank lisenziyanı ləğv etməzdən öncə heç konsolidasiyaya getməyi də təklif etməyib:** “Gözlənilmədən çağırıb dedilər ki, lisenziyanı alırıq. Halbuki təklif olsaydı ki, konsolidasiyaya gedin, məmnuniyyətlə bunu edərdik. Birləşməyin kimə ziyanı var ki? Amma bununla bağlı təklif olmadı, birdən-birə səhər durub gördük ki, lisenziyamız ləğv olunub”. **Onun sözlərinə görə, bankın bağlanması barədə qərar ictimaiyyətə açıqlanandan sonra əmanətçilərin axını ilə üzləşiblər:** “165 nəfərin bizdə əmanəti var, təkcə bu gün 17-ni qəbul etmişik. Hamı gəlib pulunu istəyir. Gərginlik var. Bağlanmış digər banklarda da bu cür vəziyyət yaranıb. Bu qədər bankın birdən bağlanması bank sektoruna inamı tamamilə itirəcək. Daha heç kim banklara əmanət qoymayacaq”. Eldar İsmayılov onu da bildirib ki, bankın lisenziyasının bərpa olunması üçün hələ ki məhkəməyə müraciət etmək barədə düşünmürlər.




Ekspertlər hesab edirlər ki, indiyə kimi banklara birləşmələri barədə dəfələrlə çağırış edilib. Lakin kommersiya bankları “birləşin” tövsiyəsinə əməl etməyib. “Marja”nın proqnozuna görə, Azərbaycanda hələ lisenziyası ləğv oluna və ya birləşə biləcək ən azı 6 bank var: “Bank Avrasiya”, “Kredo Bank”, “Günay Bank”, “Deka Bank”, “Parabank” və “Zaminbank”. “Dəmir Bank” və “AG Bank” birləşmək barədə ilkin protokol imzalayıblar.

Ekspertlərin fikrincə, bankların birləşməsi vacibdir. Mərkəzi Bank hələ 2009-cu ildən bunu elan etsə də, indiyədək alınmayıb. İkinci devalvasiyadan sonra banklar çox pis vəziyyətə düşüb və birləşməsi qaçılmazdır. Bildirilir ki, yaxın vaxtlarda Azərbaycanda başlayan bankların konsolidasiya prosesi çərçivəsində “Paşabank”, “KapitalBank” və “AtaBank” ASC-lərin birləşəcəyi gözlənilir. “Report”a bu barədə bank mənbələrindən məlumat verilib. Lakin bu bankların rəsmiləri mümkün konsolidasiya ilə bağlı konkret cavab verməyiblər. “Paşa Bank”da məlumatı nə təsdiq, nə də təkzib ediblər. Bankdan rəsmi olaraq bu barədə məlumatsız olduqlarını açıqlayıblar. “Kapital Bank”da isə məlumatı təkzib ediblər. “AtaBank”da da məlumatı nə təsdiq, nə də təkzib ediblər. “AtaHolding”də bu barədə hər hansı məlumatın olmadığı bildirilib. Qeyd edək ki, “Kapitalbank” ASC-nin səhmlərinin 99,87 faizi “Paşa Holdinq”ə aiddir. Bankın nizamnamə kapitalı 185 milyon manatdır. Hazırda ölkədə 37 bank fəaliyyət göstərir.

**Ekspert Əkrəm Həsənov güman edir ki, bankların ləğvinin ardı gələcək:** “”Əmanətlərin tam sığortalanması haqqında" Qanun qüvvəyə minənədək bağlanan banklar olacaq, sonra olmayacaq. Əks təqdirdə, fond bütün əmanətləri kompensasiya etməli olacaq. Ləğv ediləcək banklarda sığortalanmış əmanətlərin miqdarı yenə də çox az olacaq. Ləğv edilən banklar bu meyarlara tam cavab verir. Bir sözlə, hər şey plan üzrə gedir, Mərkəzi Bankın planı üzrə...".

Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, bankların lisenziyasını ləğv etmək bu istiqamətdə aparılan alternativsiz siyasətin ən asan mərhələsidir: “Belə qərarların umumi bank-maliyyə sektorunun saglamlaşdırılmasına gətirib çıxarması üçün Mərkəzi Bank, Əmanətlərin Sığortalanması Fondu və ləğvetmə komissiyası ilə birlikdə əhəmiyyətli işlər görməlidir ki, əmanətçilər narazı qalmasın, eyni zamanda həmin banklardan kredit götürənlər ondan sui-istifadə etməsinlər. Bu isə ciddi hazırlıq və monitorinq tələb edir. Əgər bağlanan banklardan əmanətlərin geri götürülməsi ilə əlaqədar problemlər yaranarsa və bu, ictimailəşərsə, son nəticədə ondan bütün bank sistemi ziyan çəkəcək. Bu zaman Mərkəzi Bank qaş düzəltdiyi yerdə vurub göz çıxara bilər. Çünki bu həssas məsələdə Mərkəzi Bankın üzərinə böyük məsuliyyət düşür. Bank öz missiyasını yalnız qərar qəbul etməklə başa çatdırmamalı, qəbul edilmiş qərarların icrasına da nəzarət etməlidir. Odur ki, prosesi izləyib, gedişini də monitorinq etmək Mərkəzi Bankın məsuliyyətində qalır”.

❑ RÖYA

YENİ MÜSAVAT
N 21 (6342) 29 yanvar 2016




**Cümə söhbətləri**

**Bugünkü bəhsimiz tövbə mövzusunda olacaq. Çox zaman insanlar düşünürlər ki, tövbə - oğurluq-əyrilik, rüşvət, zalımlıq kimi günahlara aid olan bir məsələdir. “Nə etmişəm ki, tövbə edim?” məfkurəsi ilə yaşayanlar çoxdur. Halbuki, tövbə - insanın təkamül yolunda olan yardımçısıdır. Tövbə - bir institutdur ki, insanı mərhələdən-mərhələyə keçirir. İnsan öz səhv və xətalarını dərk edir, bunlara görə peşmançılıq hissi keçirir, bunların izlərini aradan aparmağa səy edir, bunlara bir daha qayıtmamaqla bağlı əzm əldə edir, eyni zamanda, törətdiyi xəta ilə bağlı pozduğu haqları ödəyir. Təbii ki, bu səhv və xətalar insanların mənəvi dərəcələrinə görə müxtəlif olur: birisi salamın cavabını verməkdə yubandığına görə özünü qınayır - təhlil edir ki, bu, təkəbbürün məhsulu ola bilər, digəri - kiminsə qeybətini etməyə, kiminsə barədə pis zənn etməyə görə dərin peşmançılıq hissi keçirir, üçüncüsü isə kiməsə vurduğu ziyana, kimisə incitdiyinə, kiminsə qəlbini sındırdığına görə tövbə edir.**

# Əhdi xatırlayanlar və ağıl xəzinələrini üzə çıxaranlar



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

İnsanların çoxu gün ərzində bu və ya digər xəta və səhvlərə yol verir. Və konkret insanın bu səhvləri dərk edib, onlara səbəb olan amilləri təhlil etməsi, sonra bundan səmimi olaraq təəssüflənməsi, təkrar etməmək əzmi əldə etməsi və digər müvafiq addımları atması - onun mənəvi inkişafını şərtləndirən işlək konstruksiyalardandır.

## Tövbə günahı məhv edər

İnsanın bir varlıq olaraq zəif, ehtiyaclı, asılı varlıq olmasını sübut edən amillərdən biri də onun günah etməsidir. Günahların böyük və kiçik olmasından asılı olmayaraq, insan onu etməklə əslində nə qədər zəif bir varlıq olduğunu sübut edir. Bu günahlardan sonra Allaha sığınmaq, Allahdan onun bağışlanmasını diləmək isə Allahın mərhəməti olmadan məhv ola biləcəyimiz anlamındadır.

**Həzrət Əli (ə) buyurur: “Günah etdiyin zaman, tövbə ilə onun məhvinə tələs”.** İnsanlar heç də hər zaman öz nəfsləri ilə mübarizədə qalib gələ bilmirlər. İnsan hər dəfə günah, xəta edən zaman öz zəifliyini, öz acizliyini tanımış olur. Bu durumda Allaha sığınmaq, Allahdan məğfirət, bağışlanma diləmək - əslində insana Rəbbi ilə münasibət qurmağa yardımçı olur. İnsan dərk edir ki, Allaha sığınmasa, Allahdan məğfirət diləməsə - məhv ola bilər.

Günahlar deyildikdə, nədənsə insanların düşüncəsinə ilk növbədə böyük günahlar gəlir. Halbuki Allahın razı olmadığı bütün işlər, Allaha itaətsizlikdən etdiyimiz bütün səhvləri bu qəbildən qəbul etməliyik. Həzrət Əli (ə) bizlərə xəbərdarlıq edir ki, günahlara görə dərhal tövbə edilməlidir. Anlaşılır ki, əgər həmin günahlara görə tövbə etmiriksə, bu, bizim ruhiyyəmizdə təsir qoya bilər. Tövbə günahları məhv edib aradan aparan yeganə vasitədir. Tövbə - insanın iradəvi peşmançılığının göstəricisidir.

Həzrət Əmirəlmöminin (ə) tövbə ilə bağlı digər bir yerdə buyurur: **“Tövbə işini sabaha saxlayan - ölümün hücumu ilə çox böyük təhlükə qarşısındadır”**. İnsanlar bəzən tövbələrini də bir neçə böyük günahlarla məhdudlaşdırırlar. Təbii ki, böyük günahlara görə tövbə etmək vacibdir. Lakin, insan digər günahları və xətalarını da xatırlamalı, onlar üçün gec olmadan tövbə etməlidir. İnsanı tövbəyə yönəldən əsas vasitələrdən biri və hətta birincisi - ölümü xatırlamaqdır. Çünki insan hər an ölə biləcəyini düşünsə, günahlardan tövbəsini sonraya saxlamaz.

## Günahın zəminəsi - qəflət

İnsanın günah etməsi üçün ən münbit zəminə - qəflətdir. Hər zaman insanın tövbə etməsi və qəflətdən ayılması üçün Rəbbimiz çoxsaylı yollar qoyub. Namaz - insanın qəflətdən ayılması üçündür. İnsanların xütbəyə, moizəyə qulaq asması onun üçündür ki, öz daxillərini yeniləyə bilsinlər, qəflətdən ayılsınlar.

Qəflətdə olmağın vurduğu ən böyük zərbə budur ki, qəflətdə olan insan günah edir. İnsan nə dərəcədə qəflətdədirsə, bir o qədər günah edir. Öncə insan günahların sərhədlərinə yaxınlaşır, sonra günahları qorxa-qorxa edir, sonra isə artıq günahlar adiləşir. Qəflətdə olan insan üçün günahlar o qədər adiləşə bilər ki, artıq onun üçün gizlində və ya aşkarda günah etmək arasında heç bir fərq qalmaz. Qəflətdə olan insan rahatlıqla yalan danışır, qeybət edir, birini rahatlıqla məsxərə, ironiya obyektinə çevirir və s. Xüsusilə cəmiyyətdə ən çox yayılmış məsxərə xəstəliyi. Bir neçə kəs bir nəfərin olan və ya olmayan bir eybi haqqında danışıb-gülür, məsxərəyə qoyur, onu sosial şəbəkələrin “qəhrəman”ı edir. Əgər həmin insanlar bu günahın aci aqibətindən xəbərdar olsalar, gecə-gündüz yalvararlar ki, Allah onları bağışlasın.

Allahın Peyğəmbəri (s) buyurur: **“Bəndə gizlində günah etdikdə, o günah yalnız öz sahibinə zərər vurar. Aşkarda günah etdikdə isə camaat onu çəkindirməzsə, bu zaman camaatın hamısına zərər vurar”.** Bir kəs əgər gizlində günah edirsə, yalnızca öz aqibətini zay etmiş olur. Belə insan gizlində də olsa, özünü uçuruma aparar. Amma bir insan aşkarda günah edir və onu dayandıran olmursa, həmin günah getdikcə adiləşdirilir. Bu da təbii ki, bütöv bir topluma zərər vurar. Əgər digərləri onu həmin günahdan çəkindirmirsə və həmin günaha adi baxırda, deməli artıq özü də həmin günaha yoluxub.

## Tövbə fürsəti olmayan günah

Toplumda yayılan dəhşətli günahlardan biri - intihardır. Cəmiyyətdə intiharların artması birmənalı olaraq, mənəvi deqredasiyanın səviyyəsinin göstəricisidir. Digər tərəfdən, cəmiyyətdə intiharların bu qədər artmasına baxmayaraq, hələ də intiharlarla bağlı elmi araşdırma ortalığa qoyulmayıb. İntiharlarla bağlı artıq risk qruplarının, statistikanın müəyyən edilməsi, zonaların, yaş qruplarının araşdırılması zərurəti çoxdan yaranıb.

Mübarək İslam dini, eləcə də digər bütün İlahi dinlər intiharları ən böyük günahlardan hesab edir. Eyni zamanda intihar yeganə günahdır ki, onun artıq tövbə etmə fürsəti belə olmur. Bu dünyada müəyyən problem və çətinliklərdən intihar etməklə qurtulacağını düşünən insan, əslində əbədi çətinlik qazanmış olur. İmam Sadiq (ə) buyurur: **“Kim bilərəkdən özünü öldürsə, həmişə cəhənnəm odunda olacaq”.**

İntihar ümumiyyətlə müsəlmanlara, möminlərə yad bir məsələdir. İmam Baqir (ə) buyurur: **“Mömin hər bəlaya giriftar olar və hər ölümlə ölər, ancaq intihar etməz”.**

İntihar edənin artıq geri qayıtmaq, Allahın verdiyi cana qıydığına görə tövbə etməyə imkanı olmur. Ona görə də belə insan üçün Allah Təala əbədi cəhənnəm vəd edir. Allah toplumu və dünyanı bu dəhşətli mərəzdən qorusun.

## Ən əsas məşğuliyyətə tapılmayan vaxt...

İnsanın həyatı boyunca ən çox vaxt sərf etdiyi, ömrünü ona xərclədiyi məsələlər - məşğuliyyətləridir. Yaşayışı boyunca bu və ya digər məşğuliyyətlərə başı qarışır, ömrü, zamanı, həyatı gedir. Dərs, iş, güc, bundan sonra da yaş artdıqca məşğuliyyətlər də artan xətlə inkişaf edir. Bəs bütün bu məşğuliyyətlər içərisində olan insan özünə, Allahla rabitəsinə, Allaha bəndəçiliyə necə vaxt ayırmalıdır? Bəlkə bütün bu məşğuliyyətləri o formada nizama salmalıdır ki, onların hamısı da Allaha bəndəçiliyə çevrilsin?

Həzrət Əmirəlmöminin (ə) bu anlamda bəşəriyyətə olduqca ciddi bir xəbərdarlığı var. Həzrət (ə) buyurur: **“Elə ki gördün, pak olan Allah öz zikrini sənin qəlbinə salıb, (yəqin) bil ki, O, səni sevir. Elə ki gördün, sənin qəlbini Öz yaratdıqları ilə məşğul edib və Öz zikrindən ayırıb - bil ki, səndən üz döndərib”.** Bu hədisi dərk etmək, anlamaq, həyatda tətbiq etmək üçün insan gərək öz daxili durumunu hər zaman təftiş etsin. Əgər insan öz daxilini təftiş etsə, öz durumuna nəzər salsa, özü barədə düşünsə - gününün nə qədər hissəsini Allah bəndəçiliyi üçün sərf etdiyini anlayar. Əgər durumu yaxşı vəziyyətdədirsə, Allahın zikri dilindədirsə, Allah dərgahında olduğunu, Allaha bəndəçilik üçün yaradıldığını xatırlayırsa - xoş olsun halına. Demək ki, Allah onu sevir və bu ləyaqət ona inayət olunub. Lakin, əgər başı gün ərzində yaradılmışlara, məşğuliyyətlərinə qarışıbsa, bu zaman anlamalıdır ki, Allah ondan üz döndərib.

## Əhdi xatırlamaq

İnsanı qəflətdən oyatmaq - müqəddəs dinimizin ən əsas mövzularındandır. Həzrət Əli (ə) bizlərə Allahın Peyğəmbərlərinin (s) göndərilməsinin səbəblərini açıqlayır. Həzrət (ə) buyurur: **“(Allah Təala) Peyğəmbəri onların arasından seçdi və peyğəmbərlərini onlara dalbadal göndərdi ki, fitrətlərində qoyulmuş İlahi əhdə əməl etmələrini istəsin...”.** Bu buyuruşda bir sıra məqamlar diqqət çəkir. Birincisi budur ki, insanın fitrətində Allah Təala ilə əhdə əməl etmə var. Yəni insanın yaradılışında onun fitrətində pak məsələlər qoyulub. Sonradan insan səhvlər, xətalar, günahlar edərək bu pak fitrətini korlayır. Belə olan təqdirdə fitrətən daxilində qoyulmuş İlahi əhdə əməl etmir.

Bəli, Allahın öz Peyğəmbərlərini (ə) insanlara ardıcıl şəkildə göndərməsinin əsas səbəblərindən biri budur ki, onlara həmin fitrətlərində qoyulmuş İlahi əhdi xatırlatsın. Peyğəmbərlərin (ə) birinci missiyası insanlara İlahi əhdi - Allaha bəndə olmalarını xatırlatmasıdır. Bütün peyğəmbərlərin (ə) həyatında birinci missiya budur. Xüsusilə də sonuncu peyğəmbər - Əziz İslam Peyğəmbərinin (s) birinci dərəcəli missiyası insanları öz pak fitrətlərinə qaytarmaq olub.

İnsan nə qədər çirkinliklərdən təmizlənir, nə qədər Allah bəndəçiliyinə yaxınlaşırsa - bir o qədər rahatlaşır. Belə ki, insan səhvlərindən, xətalarından, günahlarından tövbə edib, Allaha bəndəçilik etdikcə öz pak fitrətinə qayıdır. Bu, insanın öz təbii halıdır. Burada qeyri-adi bir durum yoxdur. Əslində qeyri-adilik - insanın öz fitrətindəki İlahi əhdə vəfasızlıq etməsi, ondan uzaqlaşmasıdır.

## Ağıl xəzinələrinin çölə çıxarılması

Həzrət Əli (ə) peyğəmbərlərin (ə) missiyasını çatdırdığı hədisin davamında buyurur: **“... Onun unudulmuş nemətini yadlarına salsın və İlahi əmri çatdırmaqla höccəti onlara tamam etsin və onların ağıl xəzinələrini çölə çıxararaq, (Allahın) qüdrət nişanələrini onlara çatdırsın”.** Həzrət Əli (ə) əslində insanların unutqan olduğunu bir daha xatırladır. İnsanın ən önəmli xüsusiyyətlərindən biri - unutqan olmasıdır. Çox zaman insan günahları ona görə edir ki, Allahın verdiyi nemətləri unudur. Peyğəmbərlərin (s) həmin nemətləri insanlara xatırladaraq, Allahın əmrini yerinə yetirir və höccəti tamam edir. Artıq heç bir insan Qiyamətdə deyə bilməz ki, mənim xəbərim yox idi, eşitməmişdim, unutmuşdum və s. Peyğəmbərlər (ə) onlara verilmiş missiyanı tam şəkildə yerinə yetiriblər və höccəti tamam ediblər. Bundan sonrası insanın özünə qalır. Bütün etdiklərinin məsuliyyəti öz üzərindədir.

Həzrət Əli (ə) peyğəmbərlərin (ə) bir önəmli xüsusiyyəti kimi də insanların ağıl xəzinələrini çölə çıxarmaq və Allahın qüdrət nişanələrini onlara göstərmək olduğunu bildirir. Peyğəmbərlər (ə) həm də insanların istedadlarını, bacarıqlarını, ağıl xəzinələrini çölə çıxarıb. Bir çox səhabələr, sonradan isə alim və fəqihlər olub və var ki, peyğəmbərlərin (ə) yolu ilə gedərək öz bacarıqları, istedadları ilə dünyanı heyran ediblər. Xüsusilə əziz Peyğəmbərimizin (s) gətirdiyi İslam dini tam şəkildə əqlin və məntiqin üzərində durub. Bu din tam olaraq əqlə, düşüncəyə, rasionallığa söykənib.

## Münasibətin öz mahiyyətinə uyğun şəkildə qurulması

Gündəlik həyatımızı çətinləşdirən məsələlərdən biri də ifrat və təfrit mövzusudur. Bu mövzu xüsusilə insanlararası münasibətdə ən çox diqqət olunası mövzulardandır. Əgər bu mövzuda mübarək dinimizin buyuruşlarına tam şəkildə əməl etsək, həyatımızı çətinləşdirən, bəzən eybəcər hala salan bir mərəzdən qurtula bilərik.

Bəzən insanlar münasibətlərində, ya müəyyən məsələlərə yanaşmalarında ya həddi aşar, ifrat edər, ya da heç lazım olan mövqeni sərgiləməz, lazım olan həddə belə münasibətdən çəkinərək, ifrat edər. Bu iki hədd arasında ən doğru yolu əziz İslam Peyğəmbəri (s) bizlərə göstərir. Həzrət Rəsulallah (s) buyurur: **“Mülayimlikdə artım və bərəkət var. Mülayimlikdən məhrum olan, xeyirlərdən məhrum olar”.** İfratla təfritin ortası - mülayimlikdir. Mülayimlik insan həyatında bir çox məsələləri həll edir. Mülayimlik güzəşt deyil, nəyinsə edilməməsi deyil, mövqesizlik deyil. Mülayimlik - sərtlikdən çəkinmə, biveclikdən də qurtulmadır. Yəni ifratla təfritin ortasıdır. Bir sözlə, münasibətin öz mahiyyətinə uyğun şəkildə qurulmasıdır mülayimlik.

Mülayimlik həm ailədə - övladla, həyat yoldaşı ilə, ana-ata, qardaş-bacı ilə münasibətdə, həm də ümumiyyətlə cəmiyyətdə hər bir kəslə, dostla, tanışla, yadla münasibətlərdə zəruridir. Xüsusən ictimai məsələlərdə mülayimlik zəruridir. Dinimiz nə yersiz güzəşti, nə də həddi aşmağı bəyənir. İnsandan tələb olunan sadəcə budur ki, nə baş verdiyini başa düşsün və həddi aşmasın.

Dinin çatdırılmasında da mülayimlik zəruri şərtlərdən biridir. Qurani-Kərimin əsas mətnlərinə baxsaq, görərik ki, mərhəmətdən söz açılır. Həzrət Peyğəmbərin (s) İslam dinini yayarkən fəaliyyətinə nəzər saldıqda, görürük ki, bəzi istisnalar olmaq şərtilə, əksər hallarda mülayimlik yolu seçilir. Təbii ki, bəzi məqamlarda toplumun müəyyən fərdləri ilə sərtlik də zəruridir. Amma, istisnalar qanunauyğunluğa zidd deyil.

**Peyğəmbərimizin (s) buyuruşuna diqqət edəndə görürük ki, mülayimlik olan yerdə bərəkət olar. O münasibətlərdə ki, mülayimlik var, onlarda artım müşahidə olunar. Zahirdə guya Allah üçün görülən bir işlər ola bilər ki, onlarda kobudluq hakimlik edər. Həmin işlərin heç bir bərəkəti olmaz. Allah bizləri belə bərəkətsizlikdən saxlasın.**

**Allahım! Bizləri Sənə sığınanlardan, qəflətdə olmayanlardan, ifrat-təfrit etməyənlərdən, əhdi xatırlayanlardan və ağıl xəzinələrini üzə çıxaranlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016

# Apteklərdə niyə qrip vaksinləri satılmır?

## Adil Qeybulla: "Bu cür vaksinlər bütün qrip virusu ilə bağlı məsələni həll etmək iqtidarında deyil"

**Soyuq havalarda soyuqdəymə və qrip kimi xəstəliklər baş qaldırır. Qrip nəfəs yollarının kəskin infeksiya xəstəliyidir. Bu xəstəliyə həm insanlar, həm də heyvanlar və quşlar yoluxur. Bir çox ölkələrdə havalar soyuyan kimi insanlar apteklərə üz tutub qrip əleyhinə peyvəndlər vurdurur, vaksinlər alır. Bu cür peyvəndlər və vaksinlər insanları qripə yoluxmaqdan maksimum qoruyur və bu xəstəliyə qarşı müqavimətini gücləndirir.**



Qripə qarşı peyvənd inkişaf etmiş ölkələrdə daha geniş yayılıb. Bu peyvəndlər yalnız insanlara deyil, həm də mütəmadi olaraq təsərrüfat quşlarına da vurulur. Peyvənd nəticəsində əmələ gələn qrip insandan insana ötürülmür, həmçinin çox zəif gücə malik olur. Qrip virusu sürətlə təkamül etdiyinə görə müəyyən bir il üçün tətbiq edilən peyvənd növbəti il təsirini itirə bilər. Məsələn, Türkiyə və Rusiyada peyvənd olunmaq daha asan başa gəlir. Belə ki, Türkiyədə qrip əleyhinə peyvəndlər həm apteklərdə satılır, həm də onları tibb müəssisələrindən əldə etmək mümkündür. Yəni istənilən şəxs aptekdə pul ödəyib peyvəndi ala, elə oradaca peyvənd vurdura bilər, ya da hansısa xəstəxanaya üz tuta bilər. Onların qiymətləri növlərinə görə 13 türk lirəsi ilə 26 türk lirəsi arasında dəyişir.

Bəs Azərbaycanda necədir? Qrip əleyhinə peyvəndlər varmı?

Sualımıza cavab tapmaq üçün bir neçə aptekə üz tutduq. Baş çəkdiyimiz apteklərin heç birində qrip əleyhinə peyvənd olmadığını dedilər. Qrip adını eşidən əczaçıların demək olar ki, hamısı bizə onlarda ancaq "Qriphot", "Antiqrippin" və bu tipdə digər toz dərmanların və ya "Rinza" preparatını olduğunu dedilər. Qripə qarşı müqaviməti gücləndirmək üçün "İmmunoqlobulin" vurdurmağı məsləhət gördülər. Peyvəndlərə gəlincə isə baş çəkdiyimiz apteklərdə "bizdə qripə qarşı peyvənd olmur, onu ancaq xəstəxanalarda vurdura bilərsiniz" cavabını aldıq.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla qripə qarşı hansısa vaksin vurdurmağın mənasız olduğunu dedi:** "Qrip virusunun müxtəlif növləri var. Hazırda mövcud olan "donuz qripi" 2008-ci ildə də peyda olmuşdu. Hazırda Azərbaycanda onun vaksininin olub-olmaması barədə nəsə deyə bilmərəm. Qripin mövcud olan vaksini yalnız həmin dövr üçün olan ştamlara aiddir. Yəni o bütün qrip virusu ilə bağlı məsələni həll etmək iqtidarında deyil. Ona görə də bu cür vaksinlər alınarkən də həmin dövrdə o ştamların ona həssaslığı nəzərə alınmalıdır. Ola bilsin ki, Azərbaycanda mövcud olan qrip əleyhinə vaksinlərin bu gün yayılmış "donuz qripi"nə heç bir effektiv təsiri olmasın. Soyuqlama nəticəsində yaranan qrip virusuna qarşı vaksin vurdurmağın heç bir mənası yoxdur. Əgər bu vaksin donuz qripinə qarşı Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə paylanırsa, bu başqa məsələdir. Amma bu vaksinlər qrip əleyhinə nə vaxtsa, haradansa alınıb gətirilib və indi də aptek şəbəkələrində qalırsa, məncə, bunu vurdurmağın elə bir önəmi yoxdur".

A.Qeybulla "İmmunoqlobulin" kimi immun sistemini möhkəmləndirən və bədənin virusun yaratdığı problemlərdən qorunmasını təmin edən dərmanlardan istifadə etməyin daha məqsədəuyğun olduğunu bildirdi.

Ümumiyyətlə, qripin elmə 2000-dən çox növü məlumdur. Virus təsnifatına görə qrip virusu 3 tipə ayrılır. Bunlar A, B və C tipli qrip virusudur. A tipli qrip virusunun əsas daşıyıcıları su hövzələrində yaşayan vəhşi quş növləridir. A tipli qrip virusları ən təhlükəli viruslar sayılır və böyük epidemiyalara səbəb olan əsas viruslardır. Bunlara nümunə kimi 1918-ci ildə baş yayılan "ispan qripi"ni və 2009-cu ildə yayılan, hazırda da mövcud olan "donuz qripi"ni misal göstərmək olar. B tipli qrip virusuna isə yalnız insanlar yoluxur. B tipli qrip virusu A tipli virusa nisbətən 2-3 dəfə daha aşağı sürətlə mutasiya edir, genetik olaraq daha az müxtəlifliyə malikdir, bu səbəbdən B tipli virusa qarşı immunitet insanlarda aşağı yaşlardan etibarən formalaşır. Bu tip qripə yoluxan yeganə heyvan su itidir.

C tipli qrip virusuna isə insanlarda, donuzlarda və itlərdə rast gəlinir. Bu virus tipi daha az yayılıb, yalnız lokal səviyyədə epidemiyaya səbəb ola bilir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər qış dünyada on milyonlarla insan qripə yoluxur. Yoluxan insanların çoxu bir həftə ərzində iş və ya təhsildən kənarda qalır. Yuxarı yaş qrupuna aid insanlar xəstəlik nəticəsində ölüm riski altında da qala bilərlər. Məlumdur ki, hər il dünyada yüz minlərlə insan bu xəstəlik nəticəsində dünyasını dəyişir. Lakin hətta inkişaf etmiş ölkələrdə belə ölən insanların qripdən, yoxsa qripə bənzər digər xəstəlikdən öldüyünə dair dəqiq statistika aparılmır".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99


## "Nar" Britaniyanın ən böyük mobil operatoru olan "EE/T-Mobile" ilə əməkdaşlığa başladı

**Öz istifadəçilərinə keyfiyyətli rominq xidməti təklif edən "Nar" bu sahədə daha bir uğura imza ataraq, Avropanın ən böyük mobil rabitə operatorlarından biri sayılan Böyük Britaniyanın "EE/T-Mobile UK" şirkəti ilə kommersiya razılaşması əldə etdi. Layihə çərçivəsində "Nar" və Birləşmiş Krallığın ən böyük mobil operatoru olan "EE/T-Mobile" öz abunəçilərinə rominqdə olarkən daha keyfiyyətli GSM xidməti göstərə biləcəklər.**

**"Nar" operatorunun "Bir zona - bir qiymət" prinsipinə əsaslanan rominq xidməti dünyanın 165-dən artıq ölkəsini əhatə edir. Rominq haqqında ətrafl məlumatı buradan öyrənə bilərsiniz: www.nar.az**

nar
Gəlin birlikdə böyüyək



## Pirşağida ər və arvad dəm qazından öldü

**Bakıda ahıl yaşlı ər və arvad dəm qazından zəhərlənərək ölüb. Report xəbər verir ki, hadisə Sabunçu rayonunun Pirşağı qəsəbəsində baş verib. Belə ki, qəsəbə sakini 76 yaşlı Ağamusa Məmmədov və həyat yoldaşı 68 yaşlı Sevil Məmmədova yaşadıqları evdə dəm qazından zəhərlənərək ölüblər.**

## Bakı sakini donvurmadan ölüb

**APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, yanvarın 27-də Xəzər rayonunun Mərdəkan qəsəbəsində Bakı şəhər sakini Tofiq Əhmədov donvurma ilə xəstəxanaya gətirilib və orada ölüb.**

YENİ MÜSAVAT

Son səhifə

N 21 (6342) 29 yanvar 2016





QOÇ - Bu gün daha çox təmkin göstərməklə müvəffəqiyyət əldə edə bilərsiniz. Qarşınızda duran vəzifələrin həlli üçün bütün mümkün variantlardan bəhrələnməyə çalışın. Bədxah adamlardan qaçın.


BUĞA - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunacaq. Lakin bundan təəssüflənməyin. Çünki bu amil ciddi fəsad yaratmayacaq. Bu gün həmkarlarınızla mülayim davranın.


ƏKİZLƏR - Bütün diqqətinizi fəaliyyətə yönəldin. Lazımi adamların tövsiyələrinə qulaq asmaqla qarşınızı kəsən çətinlikləri dəf edin. Bu gün maliyyə sıxıntılarınız səngiməyə başlayacaq.


XƏRÇƏNG - Saat 12-dən etibarən fəaliyyətinizdə nəzərə çarpan passivlik səngiyəcək. Şəxsi büdcənizdə, insanlarla münasibətlərinizdə, eləcə də ovqatınızda xoş duyğular olacaq.


ŞİR - Rastlaşdığınız bəzi xoşagəlməzliklər saat 14-dən sonra aradan qalxacaq. Fəaliyyətinizə ədalətli yanaşsanız, həmkarlarınızın hörmətini qazana bilərsiniz. Uzaq yola çıxmağa dəyər.


QIZ - Hansısa ciddi narahatçılığınıza ehtiyac yoxdur. Amma yeni işlərə başlamaq haqqında fikirləşməyin. Nahardan sonra maraqlı adamlarla görüş və sövdələşmələriniz olacaq ki, bu da xeyrinizədir.


TƏRƏZİ - Nəyəsə nail olmaq istəyirsinizsə, boş durmamalı, bütün imkanlarınızdan istifadə etməlisiniz. Hansısa mübahisə sizə zərər yetirə bilər. Sevgi amilinə daha mərhəmətlə yanaşın.


ƏQRƏB - Gücünüz çatmayan işlərin qulpundan yapışmayın. Daha çox istirahət edin. Əgər vaxtınız olsa, nahar ərəfəsində mütləq müqəddəs ocaqlara baş çəkin. Kənar təsirlərdən qorunun.


OXATAN - Bu gün ilk əvvəl səhhətinizlə bağlı problemləri həll etməyə çalışın. Qan-damar sisteminə vaxtında əncam çəkin. Bu məsləhətlərimizə riayət etsəniz, fəaliyyətinizdə müsbət sıçrayışlar olacaq.


OĞLAQ - Astroloji göstəricilər bu arada daha çox səhhətinizə fikir verməyinizi məsləhət görür. Əlalxüsus da əsəblərinizi sakitləşdirmək üçün bütün gücünüzü səfərbər etməli, sakit guşəyə çəkilməlisiniz.


SUTÖKƏN - Risk tələb edən işlərdən uzaqlaşın. Sizə aidiyyəti olmayan proseslərə müdaxilə etməyin. Bu arada zehni fəaliyyətə ara verin. Şəxsi büdcənizdə problem olmayacaq.


BALIQLAR - İlk növbədə üzərinizə düşən vəzifələrin mahiyyətini anlamalısınız ki, nüfuzunuz itməsin. Bu gün kənardan dəstək də ala bilərsiniz. Pulla bağlı sövdələşmələrinizi isə növbəti aya saxlamağınız məsləhətdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən böyük kəşf

Elm dünyasında yeni böyük kəşfə imza atılıb. Avstraliya Milli Universitetinin bir qrup elm adamının araşdırmaları nəticə verib. "2MASS J2126-8140" adlı planet hələ 2008-ci ildə tapılıb. Lakin onun kosmosda sərbəst olduğu düşünülürmüş. Sən demə, bu, heç də belə deyil. Alimlər bu planetin əslində bir ulduza sahib olduğunu ortaya çıxarıblar. Bu ulduz "2MASS J2126-8140" adlandırılan planetdən 1 trilyon km uzaqlıqda yerləşir. TYC 9486-927-1 adlı ulduzun planetin əksinə olaraq bir dövrə vurması təqribən 1 mln. dünya ilinə bərabərdir. Planetin bir dövrü 100 işıq ilinə bərabərdir. Araşdırmada "2MASS J2126-8140"ın Yupiterdən 10-12 dəfə böyük olduğu üzə çıxıb. Planetin öz ulduzu ilə arasındakı məsafə Yerin Günəşlə arasındakı məsafədən 6900 dəfə böyükdür. Elmi tədqiqatı aparan Simon Morfinin məlumatına görə, bu planeti və onun yeganə ulduzunu tapmaq böyük şansdır. "Bu sistemin bizim Günəş sistemimiz kimi toz və qaz buludundan meydana gəlmiş olmasının imkanı yoxdur".



Hələlik bunun ən nəhəng ulduz sistemi olduğu ehtimal edilir.



## Donuz qripinin ardınca yeni bəla gəldi

**Qüsurlu doğumlara səbəb olan Zika virusu Latın Amerikası və ABŞ-dan sonra Avropaya da keçib. Danimarkada artıq bir xəstədə virus aşkarlanıb. Həmin şəxsin isə virusun aşkarlandığı Cənubi və Şimali Amerikaya səyahət etdiyi məlum olub. Bundan başqa, İngiltərədə 3 nəfər, İsveçrədə isə 2 nəfərdə bu virus aşkar edilib.**

Ağcaqanadların yoluxdurduğu Zika virusu yeni doğulan uşaqlarda beyin zədələnməsinə səbəb olur. Beləliklə, virus ağcaqanad vasitəsilə xəstə insandan sağlam insana keçir. Qrip şəklində özünü büruzə verən xəstəlik halsızlıq, qusma, qızdırma, dəridə, gözdə qızartıya səbəb olur. Hamilə qadınlar Zika virusuna yoluxduğu təqdirdə bu, şikəst uşaqların doğulmasına yol aça bilər. Uşaqlarda beyin deformasiyasına səbəb olan virus Braziliyada 4 min uşağın anormal başla doğulmasına gətirib çıxarıb. Mikrosefaliya, yəni baş çevrəsinin anormal kiçikliyi isə müayinə ilə düzəlmir. Zika virusunu araşdıran amerikalı alimlər ona qarşı peyvəndin ancaq 10 il sonra tapılacağını bildiriblər. Dünya Səhiyyə Təşkilatının regional bölməsi olan Pan Amerika Səhiyyə Təşkilatı xəstəliyin 22 ölkədə, xüsusən də Cənubi Amerikada yayıldığını bəyan edib.

# Soyuqdəymənin qarşısını alan qədim hind çayı

**Masala çayı güclü iltihab və mikrob əleyhinə təsirə malikdir, immuniteti möhkəmləndirir, orqanizmin infeksiyalara qarşı davamlılığını artırır.**

Soyuq qış günlərində bu çay soyuqdəyməyə qarşı ən yaxşı profilaktikadır.

**İnqrediyentlər:**

- 200 qr süd
- 200 qr su
- 3 xörək qaşığı şəkər tozu (zövqə görə artırmaq və ya azaltmaq olar)
- 3 çay qaşığı yaxşı qara çay
- 1/3 çay qaşığı üyüdülmüş zəncəfil
- 1/3 çay qaşığı üyüdülmüş darçın
- 2 dənə mixək
- 2 dənə hil

**Hazırlanması:**

1. Su və süd qazana tökülür, ədviyyatlar əlavə olunur. Vam odda 2-3 dəqiqə ərzində qaynadılır.
2. Şəkər tozu və çay əlavə olunur. Yenə də 2-3 dəqiqə ərzində vam odda qaynadılır.
3. Fincanlara (100 ml) süzgəcdən süzülür və isti halda içilir.





## Oyuncaqlar üçün təyyarə bileti

Tailandda xalq oyuncaqların yaxşı şans gətirdiyinə inanırlar. Bu üzdən onların uşaq kimi davrandıqları oyuncaq kuklalar üçün hökumət bəzi tədbirlər görməyə məcbur olub. "Bangkok Post"un xəbərinə görə, Tailandda "Luuk thep" (Mələk Uşaq) adı altında satılan və dəyəri 600 dollar olan kuklaları sahibləri davamlı yanlarında gəzdirirlər, restorana aparırlar. Ölkədə boyu 110-130 santimetr olan kuklalar restorana aparıldıqları zaman 5 dollar ödəyirlər, daha balaca kuklalar isə pulsuz qəbul edilir. Oyuncaq kuklalara gerçək uşaq kimi davranılmasının səbəbi Tailanddakı keçmiş bir inanca əsaslanır. Hələ də davam edən inanca görə, taxta kuklalara yaxşı davranmaq şans artırır. 2015-ci ildə yenidən başladılan inanc məşhurlar tərəfindən də rəğbət görür. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, oyuncaq kuklaların sahibləri təyyarəyə minərkən belə onlara bilet alırlar.

## Aktyor Barak Obamanın iş otağına girdi



ABŞ-ın ən məşhur teleaparıcısı və komik aktyor olan Cerri Sinfildin şousunun növbəti qonağı ölkə prezidenti Barak Obama olub. Milli.az ABC-yə istinadən bildirir ki, "Comedians in Cars Getting Coffee" şousuna qatılan Barak Obama teleaparıcını Ağ Evdə qəbul edib. 1963-cü ilin istehsalı olan Corvette-də Ağ Evə yollanan komik Barak Obamanın iş otağına girib, divana yayxanaraq oturub və "Barak, tələsmə, işini gör", - deyib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.